

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib



5

# "Biz təyyarə qəzası ilə bağlı günahkarların cəzalandırılmasını tələb edirik"



2

*Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşüb*

SƏS
№ 001 (7169)
7 yanvar 2024-ci il.
Qiymәti 60 qәpik

# 21 il inam və ləyaqətlə inkişaf edən Azərbaycan!



8

## XİN: Fransadan regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik



6

## Müşfiqsiz 87-ci 6 yanvar: O, yenə gözəl xatırlanır



10

## Avropa Komissiyası – korrupsiya yuvası




12

## SALAMLAŞMA: unudulmağa qoymayaq!



13

## DİQQƏT: Avtomobillərə verilən etibarnamələr ləğv olunur?




14

# "Biz təyyarə qəzası ilə bağlı günahkarların cəzalandırılmasını tələb edirik"





## Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşüb





***Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı–Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşüb.***

Görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, dekabrın 25-də Bakı-Qroznı marşrutu ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Qroznı şəhərinin yaxınlığında kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və demək olar ki, idarəolunmaz vəziyyətə salınıb. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Pilotların və bütün ekipaj üzvlərinin fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. "Mənim Sərəncamımla ekipaj üzvləri ilə vida mərasimindən sonra ekipajın üç üzvü - iki pilot və bir bələdçi "Milli Qəhrəman" adına layiq görülüb, iki bələdçi isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Əgər pilotlar peşəkarlıq, qəhrəmanlıq göstərməsəydilər, bu qəzada sağ qalan olmazdı.

Bildiyiniz kimi, Dövlət Komissiyası yaradılıb, komissiya fəaliyyət göstərir. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan prokurorluğu cinayət işi açıb. Cinayət işinin ilkin araşdırması dediyim versiyanı bir daha təsdiqləyir. Bu barədə ilkin məlumat bizdə artıq dekabrın 29-da var idi və Azərbaycan Televiziyasına vida mərasimindən sonra verdiyim müsahibədə mən həm öz fikirlərimi, eyni zamanda, istintaqın bizə verdiyi məlumatı Azərbaycan xalqına çatdırmışdım. Bildirmişdim ki, Azərbaycan ictimaiyyəti istintaqın gedişatı ilə müntəzəm surətdə tanış olacaq.

Prokurorluğun işçi qrupları həm Qroznı, həm Aktau şəhərlərinə ezam edilmişdi, orada operativ işlər görmüşdür. Yenə də deyirəm, ilkin məlumatlar var. Biz təbii olaraq istintaqın başa çatmasından sonra tam məlumatı Azərbaycan ictimaiyyətinə çatdıracağıq. Ancaq dekabrın 29-da bildirdiyim bir məqamı bir daha diqqətinizə çatdırmaq istəyirəm. Qroznı şəhərində "kavyor əməliyyatı", yəni, hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib. Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Adətən hər hansı bir ölkənin hava məkanında təhlükə yaranırsa, dərhal o ölkənin hava məkanı bağlanır. Bu, bütün ölkələrdə var və bunun müxtəlif adları var. Rusiyada buna "kavyor əməliyyatı" deyirlər. Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi. Dərhal hava məkanı bağlanmalıydı və təyyarə geri dönməli idi. Onu da bildirməliyəm ki, baş vermiş qəzadan təqribən 10 gün əvvəl oxşar hadisə Qroznı şəhərinin yaxınlığında baş vermişdi. AZAL-a məxsus təyyarə yarı yoldan geri dönmüşdü. Nə üçün bu dəfə təyyarə ekipajına xəbərdarlıq edilməmişdi? Bunu

### Prezident: "Azərbaycan dövləti öz oğul və qızlarının qəhrəmanlığını həmişə layiqincə qiymətləndirib"

təbii olaraq istintaq göstərəcək. Mən bir daha demək istəyirəm ki, bizdə olan məlumat həqiqətə əsaslanır. Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar. Yenə də deyirəm, məhz pilotların və ekipaj üzvlərinin qəhrəmanlığı nəticəsində 30-a yaxın insan bu qəzadan sağ çıxıb, onların bir neçəsi ağır yaralanmışdır. Onu da bildirməliyəm ki, qəza nəticəsində ən çox həlak olan Azərbaycan vətəndaşlarıdır. Eyni zamanda, Rusiya və Qazaxıstan vətəndaşları da həlak olublar. Qırğızıstan vətəndaşları isə yaralanmışdır.

Ekipaj üzvlərinin qəhrəmanlığı haqqında mən vida mərasimi zamanı bildirmişdim. Bir daha demək istəyirəm, bu, doğrudan da böyük fədakarlıqdır. Mən bildirdim, çox güman, pilotlar bilirdilər ki, bu qəzadan sağ çıxa bilməyəcəklər. Onlar təcrübəli pilotlar idi, idarəolunmaz vəziyyətdə olan təyyarəni məhz öz peşəkarlıqları nəticəsində bir yolla məkana yetişdirə bilmişdilər və qəza enişi olsa da, təyyarəni endirə bilmişdilər. Ekipajın digər üzvləri - bələdçilər də soyuqqanlılıq göstərmişlər. Təyyarədə xaosun yaranmaması üçün böyük cəsarət göstərmişlər. Onlar da görürdülər, bilirdilər ki, onları nələr gözləyir. Yəqin, heç ümid etmirdilər ki, bu vəziyyətdən sağ-salamat çıxa bilərlər. Belə vəziyyətdə özünü təmkinlə, soyuqqanlılıqla, cəsarətlə aparmaq, əlbəttə ki, bir daha onların yüksək keyfiyyətlərini göstərir. Xüsusilə nəzərə alsaq ki, bələdçilərin ikisi qadın idi.

"Qara qutu"ların açılması prosesi başlanmışdır. Bizim təkidimizlə bu proses Braziliyada həyata keçirilir. Mən bunu dekabrın 29-da televiziyaya müsahibəmdə demişdim ki, biz bütün təkliflərə və təkidlərə baxmayaraq Dövlətlərarası Aviasiya Komitəsinin "qara qutu"ları açmasına qəti etiraz etmişdik. Çünki burada obyektivlik sual altına düşə bilərdi. Burada hüquqi dillə desək, maraqlar toqquşması ola bilərdi. Ona görə Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada "qara qutu"ların təhlilinə başlanılmışdır və yəqin ki, yaxın gələcəkdə bu barədə də məlumat veriləcək. Təbii ki, bu günə qədər hələ də açıq olmayan bütün məsələlər də üzə çıxacaq. Gün kimi aydın olan məsələlər ondan ibarətdir ki, təyyarə radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bizə bəlli olan digər məsələ ondan ibarətdir ki, təyyarə yerdən açılan atəş nəticəsində zədələnmişdir. Ancaq nə üçün təyyarə Aktau istiqamətinə göndərilmişdir? Bu barədə bizdə hələ ki, məlumat yoxdur.

Ardı Səh. 3

# "Biz təyyarə qəzası ilə bağlı günahkarların cəzalandırılmasını tələb edirik"









Əvvəli-Səh-2

Bu, yerli dispetçerlər tərəfindən qəbul edilmiş qərar əsasında baş verib, yoxsa pilotlar özləri başa düşərək ki, artıq Rusiyanın hava məkanında radioelektron mübarizə vasitələri onlara eniş etmək üçün imkan verməyəcək və özləri bu seçimi ediblər. Bu barədə hələ ki, bizdə məlumat yoxdur. Təbii ki, "qara qutu"lar açılandan sonra bütün bu məlumatlar olacaq.

Ekipaj üzvlərinin fəaliyyətini nəzərə alaraq, bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti onları yüksək mükafatlarla təltif edib. Ekipaj üzvlərinin ailələrinə, həmçinin təyyarə qəzasında həlak olanların hamısının ailələrinə bir daha başsağlığı vermək istəyirəm. Məhz ekipaj heyətinin peşəkarlığı, rəşadəti və qəhrəmanlığı sayəsində 30-a yaxın insanın həyatını xilas etmək mümkün oldu.

Yəqin ki, siz də bu faciəvi xəbərin dünya mediasında necə işıqlandırıldığını izləyirsiniz. Bütün digər məsələlərlə yanaşı, ekspertlər məhz pilotların peşəkarlığını və qəhrəmanlığını qeyd edirlər, eyni zamanda, ekipaj heyətinin bütün digər üzvlərinin yüksək keyfiyyətini. Çünki belə bir şəraitdə qəza enişi etmək və Rusiyanın hava məkanında kənar müdaxilə nəticəsində demək olar ki, idarəolunmaz halda olan təyyarəni sahilə qədər çatdırmaq həm peşəkarlıq, həm də qəhrəmanlıq tələb edirdi. Heç kim özünü itirmədi, hərçənd artıq dediyim kimi, ekipaj üzvləri başa düşürdülər ki, sağ qalmaq şansı demək olar, yoxdur. Görünür, pilotlar əmin idilər ki, bu, onların sonuncu reysidir, amma bununla

> *"Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi"*

belə, insanları xilas etmək üçün hər şeyi etdilər. Qəhrəmanlıq da bundan ibarətdir. Əgər pilotların nümayiş etdirdikləri qəhrəmanlıq və fədakarlıq meyarları varsa, bunu məhz belə adlandırmaq lazımdır.

Azərbaycan dövləti öz oğul və qızlarının fəaliyyətini, qəhrəmanlığını həmişə layiqincə qiymətləndirib. Bu dəfə də ekipaj heyətinin qəhrəmanlığı layiqincə qiymətləndirildi. Ekipajın üç üzvünə ölümündən sonra "Milli Qəhrəman" yüksək adı verildi, sağ qalan iki ekipaj üzvü də yüksək dövlət mükafatı ilə təltif olundu. Ola bilər ki, yaxınlarını itirən ailələr üçün bu, kiçik bir təsəllidir, amma Azərbaycan dövlətinin öz vətəndaşlarına münasibətinin təzahürüdür. Həlak olanların hər biri təkcə onun yaxınları, ailə üzvləri üçün deyil, həm də Azərbaycan dövləti üçün əzizdir. Biz buna operativ şəkildə reaksiya verdik, elə bir şəraitdə Azərbaycanın hər bir vətəndaşının həyatının bizim üçün çox qiymətli olduğunu bəyan edərək, prinsipial davrandıq və ədalət, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmalarına səbəb olan təqsirkarların cəzalandırılmasını tələb edəcəyik. Əgər Qroznı şəhəri öz ərazisində Rusiyanın hava məkanının bağlanması üzrə vaxtında tədbirlər görsəydi, yerüstü xidmətlərin bütün qaydalarına əməl olunsaydı, həmçinin Rusiya Federasiyasının silahlı qüvvələri və mülki xidmətləri arasında koordinasiya olsaydı, onda bu faciə də baş verməzdi.

Mən hələ ki, cinayət işinin bütün materiallarını açıqlamaq istəmirəm, onun ilkin təhqiqatı və nəticələri mənə məruzə edilib. Amma əminliklə deyə bilərəm ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrinin üzərindədir. Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik.

"Qara qutu"ların Braziliyaya göndərilməsi də ondan xəbər verir ki, biz obyektivlik tələb edirik. Mən artıq bu barədə ekipajla vida mərasimindən sonra da demişəm. Əgər biz ilk dəqiqələrdən və ya saatlardan Rusiya Federasiyası rəsmi dairələri tərəfindən bu faciəni obyektiv araşdırmaq cəhdini görsəydik, onda çox güman ki, "qara qutu"ların Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən açılmasının həyata keçirilməsinə razılıq verərdik. Biz onilliklər ərzində bu struktur ilə əməkdaşlıq etmişik və fəal əməkdaşlığımız olub. Bu struktur əsasən keçmiş SSRİ məkanında təyyarə qəzalarının təhqiqatı ilə məşğul olub. Amma biz işin ört-basdır edilməsi, bunu hansısa quşların və ya qaz balonunun adına çıxmaq cəhdini gördükdə, təbii ki, həm mənim, həm də Azərbaycan ictimaiyyətinin bu strukturun təhqiqatının obyektivliyinə ciddi şübhələri yarandı. Hazırda "qara qutu"ların şifrəsinin açılması prosesi gedir. Əminəm ki, yaxın vaxtlarda biz ilkin nəticələri öyrənəcəyik və hər şey öz yerini tutacaq. Baş verən faciənin bütün mənzərəsi də məlum olacaq. Təbii ki, bu, faciənin tam araşdırılması və onun günahkarlarının cəzalandırılması işində mühüm məqam olacaq.

Mən həlak olanların ailə üzvlərini, eləcə də ekipaj üzvlərini bu yüksək mükafatları şəxsən sizə təqdim etmək, sizə bir daha başsağlığı vermək və Azərbaycan dövlətinin hər zaman sizinlə olacağını bəyan etmək üçün dəvət etdim. Mən sizə müraciət və xahiş etmək istəyirəm ki, həyatın istənilən şəraitində sizin arxanızda güclü Azərbaycan dövlətinin dayandığını biləsiniz. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, həmçinin "Azərbaycan Hava Yolları" QSC-yə sizinlə daimi əlaqə saxlamaq və sizi narahat edən məsələləri operativ şəkildə həll etmək tapşırılıb. Bir daha mənim başsağlığımı qəbul edin və əmin olun ki, biz bu məsələni, bu araşdırmanı sonadək başa çatdıracağıq."

Daha sonra təltifolunma mərasimi keçirildi.

# Azərbaycanda müasir turizm infrastrukturu





**Dövlət başçısı Şahdağ Turizm Kompleksində yerləşən "Lakeside" hotelində aparılmış işlərlə və "Xizək klubu" binasının tikintisi ilə tanış olub**



Təbiəti, təbii sərvətləri, iqlimi, yeraltı və yerüstü sərvətləri ilə diqqətdə olan Azərbaycanda turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən Dövlət Proqramları, layihələr böyük uğurlara səbəb olub. Yaxın tarixi keçmişimizə nəzər salsaq görərik ki, müstəqillik qazandığımız ilk illərdə Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olunmuşdur. Belə ki, həmin illərdə müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində bir sıra problemlərin yaranması ilə nəticələndi. Ötən əsrin 90-cı illərin sonunda turizmin inkişaf tendensiyası ölkənin ali qanunvericilik aktlarında əksini tapdı. Belə ki, Azərbaycanda turizm sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması və s. sahələrdə məqsədyönlü tədbirlər planı həyata keçirilməyə başlandı.

1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi.

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti və qayğısı nəticəsində ölkəmizdə turizm infrastrukturunun daha da inkişaf etdirilməsi istiqamətində çox mühüm layihələr həyata keçirilir. Dünyanın ən yüksək standartlarına cavab verən müasir turizm infrastrukturunun yaradılması sayəsində insanlarımızın, eləcə də ölkəmizə gələn turistlərin rahat istirahəti üçün hər cür şərait yaradılır. Bunun nəticəsində həm yeni iş yerləri açılır, həm daxili turizmin potensialı genişlənir, həm də Azərbaycana gələn xarici turistlərin sayı artır. Bütün bunlar, eləcə də ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq Azərbaycanı dünyanın ən cəlbedici məkanlarından birinə çevirib. Görülən işlərin davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yanvarın 2-də Şahdağ Turizm Kompleksinin ərazisində inşa edilən "Lakeside" hotelində aparılmış işlərlə tanış olublar. Hotelin interyeri Lahıcın ən məşhur misgərlik ustalarının əl işləri olan Lahıc misgərlik sənətinin nümunələri ilə bəzədilib. Yeni hoteldə qonaqların istirahətinin hərtərəfli, dolğun və mənalı təşkili üçün geniş imkanlar yaradılacaq. Burada ümumilikdə 122 nömrə olacaq. Hoteldə idman, "Kids Care" zonaları, işgüzar tədbirlər üçün müasir konfrans zalı və iclas otağı, xizək həvəskarları üçün xizək məktəbi və iki xizək simulyatoru ilə təchiz edilmiş mərkəz fəaliyyət göstərəcək. Hotelin yerləşdiyi əraziyə xizək sürənlərin rahat yaxınlaşmalarını təmin etmək üçün burada ilk dəfə "MegaCord" əlaqələndirici lift fəaliyyət göstərəcək. Bu lift hoteli ümumi kanat yolları şəbəkəsi ilə birləşdirəcək.

## XİZƏK STADİONU AZƏRBAYCANIN İDMAN ÖLKƏSİ KİMİ DÜNYADA BEYNƏLXALQ ROLUNU DAHA DA ARTIRACAQ

Şahdağın gözəl təbiəti və yeni hotelin göstərəcəyi xidmətlər qonaqların istirahətini unudulmaz edəcək. Hotelin qarşısında təbii gölün füsunkar mənzərəsi, gölətrafı müxtəlif restoran və kafelər qonaqların istirahətinə xüsusi rəng qatacaq. Qeyd edək ki, yeni hotelin interyerində milli ornamentlərə üstünlük verilib. Taxtadan hazırlanmış və əl işi olan Qarabağ xalçasının nümunəsi də hotelin interyerini bəzəyən elementlərdən biri olacaq. Hoteldə 250 yerlik restoran qonaqların ixtiyarına veriləcək. İnşaat işlərinin ikinci fazasında hotelin yaxınlığındakı dağlıq ərazidə gəzinti parkının tikintisi də nəzərdə tutulur. Şahdağ Turizm Kompleksinin ərazisində inşa edilən Xizək Stadionu Kompleksinin "Xizək klubu" binasında kafe, brifinq, iclas və konfrans zalları, mətbuat nümayəndələri üçün otaq olacaq. Yalnız qış mövsümündə deyil, bütün ilboyu burada "Xizək klubu"nun üzvü olanlara, o cümlədən uşaq və yeniyetmələr üçün xizəksürmə kursları təşkil ediləcək.

Xizək Stadionu Kompleksində yaradılmış yamac Beynəlxalq Xizək və Snoubord Federasiyasının bütün tələb və standartlarına tam cavab verir. Burada idmanın bu növü üzrə müxtəlif beynəlxalq yarışların, o cümlədən dünya və Avropa çempionatlarının keçirilməsi üçün hərtərəfli şərait yaradılacaq. İdman kompleksində idmançıların, məşqçilərin və azarkeşlərin rahatlığı üçün bütün məqamlar nəzərə alınacaq. Burada 500 nəfərlik tribuna quraşdırılacaq.

Qeyd edək ki, artıq bir neçə ölkə öz idmançılarının Şahdağ Turizm Kompleksinin ərazisində inşa olunan Xizək Stadionu Kompleksində təlim-məşq toplantıları keçirmələri üçün müraciət edib.

## QIŞ TURİZMİNİN İNKİŞAFINDA NƏHƏNG İNFRASTRUKTUR

Qış turizminin inkişaf etdirilməsi ilə bağlı atılan növbəti addımlardan biri də Qəbələdəki "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi oldu. Bu iri kompleksin inşası göstərir ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksində nəhəng infrastruktur yaradılıb. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlərin yaradılması istiqamətində işlər davam etdirilir. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılıb. Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadə etməyə imkanlar verir.

Kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trassa sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Bütün dağ-xizək trassası süni qar yaratma generasiya sistemi ilə təchiz edilib. Bütünlükdə "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi gün ərzində üç min nəfərə xidmət göstərmək imkanına malikdir. Bu layihənin reallaşdırılması respublikada dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün də hərtərəfli imkanlar açır. "Şahdağ" Qış-Yay Turizm, "Tufan" Dağ-Xizək Qış-Yay İstirahət komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə olunan uğurların göstəricisidir. Yaradılan şərait bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Azərbaycana - Qəbələyə, Qusara səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkanlar qışda da turistləri ən gözəl istirahət mərkəzidir.

## DÜNYANIN APARICI OTEL BRENDLƏRİ AZƏRBAYCANDA

Əlbəttə ki, Azərbaycanın bölgənin lider dövlətinə çevrilməsi dünyanın ən məşhur firma və şirkətlərinin, brendlərinin ölkəmizə diqqətinin artmasına səbəb olub. İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Əgər bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. İnkişaf etmiş sivil dünyanı maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə heyrətləndirən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı.

Bütün bunlar göstərir ki, Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına təsirini göstərir. Azərbaycanda turizm sahəsində yaradılan imkanlar dünya səviyyəsindədir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP Mərkəzi Aparatında müşavirə keçirilib

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsi üzrə irəli sürdüyü bütün namizədlərin qeydə alındığı vurğulanaraq onlara uğurlar arzulanıb.

Sonra YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, ötən müddət ərzində nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi qeyd edilərək yerli seçki qərargahlarının fəaliyyəti müsbət qiymətləndirilib.

Yanvarın 6-dan başlayacaq seçkiqabağı təşviqat mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılaraq müvafiq tapşırıq və tövsiyələr verilib, YAP Mərkəzi Aparatı tərəfindən hazırlanmış seçki proqramı və digər təşviqat materialları yerli seçki qərargahlarının sədrlərinə təqdim olunub.



Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri ilə əlaqədar maarifləndirmə məqsədilə istər məşvərətçi səs hüquqlu üzvlər, istərsə də seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslər üçün keçiriləcək təlimlərin önəmi vurğulanıb.





# Ermənistan üçün 2025-ci il gözləntiləri




***Bu vaxta qədər rəsmi İrəvanın nə qədər "ərköyünlük" etməsinə baxmayaraq, artıq Ermənistan üçün çox dar çərçivədə seçim imkanı qalıb və bu imkandan doğru şəkildə istifadə edilmədiyi halda, haylar üçün ağır nəticələr gözlənilləndir. Yenicə başlayan 2025-ci ildə erməni "başbilənlər" daha əvvəlki kimi ağılsızlıq etməməli, çox ciddi şəkildə düşünməli, doğru qərarlar verməlidirlər ki, təmsil etdikləri toplumu heç olmasa bundan sonra fəlakətlərə sürükləməsinlər. Artıq erməni baş nazir Nikol Paşinyanın və onun hakimiyyət komandasının ötən illərdəki kimi nə vaxtı var, nə də bundan sonra məsələni uzatmaq kimi bir şansı qalmayıb. Bundan sonra konkret qərarlar qəbul edilməsi gərəkir və bu qərarların hansı şəkildə qəbul olunması, daha doğrusu, doğru, yaxud da yanlış qərarlar məhz cari il, 2025-ci ildə Ermənistan üçün müvafiq gözləntilər vəd edir.***

## Narahatlıq, qorxu və həyəcan hayların yuxularını haqlı olaraq ərşə çəkib

Hazırda erməni cəmiyyətinin özündə məntiqi şəkildə bir narahatlıq, qorxu və həyəcan müşahidə edilir. Bu narahatlıq, qorxu və həyəcan elə Ermənistana məxsus mətbuat səhifələrində də, üstəlik, erməni ekspertlərin rəy və şərhlərində, fikirlərində də özünü büruzə verir. Məsələn, təhlükəsizlik və hərbi məsələlər üzrə erməni ekspert Ayk Nahapetyanın fikirləri diqqəti cəlb etməyə bilməz. Əlaxüsus da, həmin o erməni ekspertin yerli mediaya, Ermənistana məxsus mediaya müsahibəsi təsdiq edir ki, haylar arasında az da olsa düşünənlər artıq cari ildə lazımi doğru qərarlar vermək məcburiyyətində qaldıqlarının fərqindədirlər. Fərqindədirlər ki, həm Cənubi Qafqazda, həm də beynəlxalq miqyasda düzgün seçim etmək kimi bir yolun başlanğıcındadırlar. Özü də haylar üçün çox az zaman qaldığı da məhz erməni ekspert Ayk Nahapetyanın timsalında digərləri tərəfindən də etiraf olunmaqdadır. Xüsusən də, indi Ermənistanın, məhz Qərb və ya Rusiya kimi çox mürəkkəb bir seçim qarşısında qaldığı, eləcə də regionda öz yolunu düzgün təyin etmək kimi bir seçim ilə üz-üzə olduqları göz önündədir və narahatlıqları da bundan yaranır. Çünki bu zamana qədər hayların "başbilənləri" hər vəchlə məsələləri uzatmaq kimi bir yol tuturdular və məsuliyyətdən də bu şəkildə yayınmağa cəhd edirdilər, hansıki indi belə bir imkanlar qalmadığı onların yuxularını haqlı olaraq ərşə çəkib. Ona görə yuxuları ərşə çəkilib ki, yanlış addımlar atılacağı təqdirdə başlarına nələrin gələcəyinə, cari ildə hansı gözləntilər olacağına əmindirlər.

## Bir dövlət olaraq Ermənistanın öz mövcudluğunu qoruması üçün çox az vaxtı qalıb və həyəcan təbili anlaşılandır

Açıq şəkildə erməni ekspert Nahapetyan vurğulayır ki, bir dövlət olaraq Ermənistanın öz varlığını davam etdirməsi üçün çox az vaxtı və imkanı qalıb. "Bizim bir dövlət olaraq varlığımızı davam etdirməyimiz üçün cəmi 3-4 ay vaxtımız var. Bilirəm ki, Ermənistan hökuməti üçün bu addımı atmaq çətindir. Lakin İrəvan məhz KTMT və Rusiya ilə münasibətlərini çox tez bir zamanda mütləq bərpa etməlidir. Bunun ardınca Ermənistan və Azərbaycan arasındakı münaqişənin həlli istiqamətində məhz 10 noyabr 2020-ci il tarixli və digər üçtərəfli bəyanatlara Ermənistan istinad etməlidir. Daha sonra 10 noyabr tarixli üçtərəfli bəyanatın 9-cu bəndini gündəmə gətirmək, əlaxüsus da Zəngəzur dəhlizini Rusiyanın nəzarətində açmaq, eləcə də Rusiyanın Qafanda baş konsulluğunu açmaq, həmçinin Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu artırmaq lazımdır", deyə təhlükəsizlik və hərbi məsələlər üzrə erməni ekspert Ayk Nahapetyan açıq şəkildə bildirir. Daha dəqiq desək, bütün sadalananlar üçün ölkəsinin çox az, cəmi bir necə ay vaxtının qaldığını xatırladır və əks halda, Ermənistanın bir dövlət olaraq mövcudluğunun sual altında qalcağını böyük həyəcanla vurğulayır. Sözsüz ki, onun belə həyəcan təbili çalması təsadüfi deyil və görünür erməni ekspert öz ölkəsinin reallıqlarla üzüzə qaldığını yaxşı başa düşüb.

Göründüyü kimi, hayların özləri arasında belə məsələnin nə dərəcədə ciddi olduğunu dərk edənlər var. Eyni ilə qeyd etdiyimiz kimi, haylar arasında da dərk edənlər tapılır ki, Ermənistan adında bir ölkə həm regional, həm də qlobal miqyasda heç olmasa dorğu istiqamət götürməlidir. Doğru istiqamət götürməlidir ki, mövcudluğu sual altında qalmasın. Şəxsən erməni ekspert Nahapetyanın timsalında haylar arasında bəziləri başa düşürlər, daha doğrusu, başa düşmək məcburiyyətindədirlər ki, Ermənistan həm Cənubi Qafqaz regionunda, həm də bütün dünyada özünə doğru yol seçməlidir. Məsələ burasındadır ki, rəsmi İrəvan heç də belə görünmür və gözləntilərin deyəsən fərqində deyil. Amma həmin o gözləntilər barədə xatırlatma etmək tam yerinə düşür.

## Başlarına gələnlərin məhz yanlış siyasətin nəticəsi olduğunu dərk etməli, bundan çəkinməlidirlər ki, arzulamadıqları gözləntilərlə üzləşməsinlər

Dünyanın siyasi xəritəsində Ermənistan adlı bir ölkənin qalması üçün rəsmi İrəvan silah əldə etməli deyil və əldə etdikləri silahlar hayların dövlətini qoruyub saxlaya bilməz. Yəni, bu çıxış yolu sayılmır və yanlış addımdır. Çünki hayların qonşularından, region ölkələrindən yox, elə məhz özlərindən, öz ölkələrinin, öz hakimiyyətlərinin yanlış siyasətlərindən, eləcə də silah verib onları münaqişələrə, müharibələrə şirniklədirənlərdən qorunmaları gərəkir. İşğalçılıq siyasətinin, hələ də başqalarına məxsus olan torpaqları, dəyərləri mənimsəmək, özününküləşdirmək niyyətinin, bu niyyətlərindən istifadə edərək, hiyləgərliklə onlara verilən "dəstəyin" hayların başlarına belə olduğunu dərk etmələri lazım gəlir. Ən azından bu vaxta qədər başlarına gələnlərin məhz həmin yanlış siyasətin və niyyətlərin nəticəsi olduğunu indi də olsa dərk etməlidirlər ki, arzulamadıqları gözləntilərlə, mövcudluqlarının sual altında qalması ilə üzləşməsinlər. Dərk etməlidirlər ki, belə arzuolunmaz gözlənti ilə məhz bu ildə, 2025-ci ildə qarşılaşa bilərlər.

İlk öncə haylar başa düşməlidirlər ki, onlar üçün ən vacib olanı məhz region ölkələri ilə anlaşmalarıdır. Başa düşməlidirlər ki, qonşu ölkələrlə sülh şəraitində yaşamaları, münasibətlər qurmaları ən doğru addımdır. Hər halda, silah əldə etmək istəyənlər, bunun üçün dəridən-qabıqdan çıxanlar və əldə etdikləri silahlara görə də "sevincək" olanlar kimdən qorunmaq gərəkir, sualını özlərinə versələr pis olmaz. Onlar belə bir sual barəsində ən azından düşünsələr başa düşərlər ki, onları qızışdıran, müharibələrə, münaqişələrə sövq edən və nəticədə də çıxılmaz vəziyyətdə qoyan güvəndikləri Qərb, eyni zamanda Avropanın bəzi ölkələridir. Məsələn, Fransa kimi bir ölkənin timsalında məhz müttəfiqlik adı altında qondarma dəstək, silah verilməsi yersiz müdaxilədir və çox acınacaqlı sonluğa sövq edən, aparan xoşagəlməz gözləntilər vəd edən yanaşmadır.

## Haylar ən xırda yanlışlıq müqabilində ancaq bu il Ermənistanın dünyanın siyasi xəritəsindən silinməsini gözləyə bilərlər

Hər halda, Rusiyanın məhz Ukrayna ilə müharibəni başa çatdırdıqdan sonra Ermənistana da bir "əl gəzdirmək" niyyətində olması təkzib edilə bilməz. Haylar özləri də yaxşı bilirlər ki, rusları Qərbə meyl etməklə, onları bölgəyə dəvət etməklə və bir sıra çaşqınlıqları ilə kifayət qədər qıcıqlandırıblar və bunun qarşılığını gözləməlidirlər. Bilirlər ki, Kreml imkan tapan anda dərhal İrəvandakı rıçaqlarını işə salacaq və Qərbin müdaxiləsinin qarşısını almaq üçün bütün mümkün tədbirlərə al atacaq. Ermənilər yaxşı başa düşürlər ki, bu vaxta qədər onlara kifayər qədər "resurs" sərf edən ruslar heç də "əl üzmək" niyyətində ola bilməzlər. Xüsusən də məhz Ermənistanda ABŞ-ın və ya NATO-nun hər hansı şəkildə varlığına rusların dözməyəcəyi bəllidir.

Hesab edirik ki, haylar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması və sülh sənədinin imzalanması məsələsində Rusiyanın mövqeyini yaxşı bilirlər. Yaxşı bilirlər ki, Rəsmi Moskva məhz Putinin imzası olan üçtərəfli sənədlərə çox həssas yanaşır və hər halda, sülh, barışıq istəyinin dəfələrlə bəyan edilməsini unutmayıblar. Xüsusən də, üçtərəfli bəyanatın 9-cu bəndinə əsaslandıqlarını bəyan edən rusların məhz Zəngəzur dəhlizinin də Rusiyanın nəzarətində olması ilə əlaqədar "istəkləri" barədə də haylar müəyyən "təsəvvürə" malik olmalıdırlar. Bilməlidirlər ki, ruslar Bakı və İrəvan arasında imzalanmalı olan sülh müqaviləsinə məhz Qafqazda öz yerlərini möhkəmləndirmək vasitəsi kimi baxırlar və buna görə də həmin müqavilənin imzalanması üçün bütün "mümkün variantlara" əl atacaqlar, hansıki bu "variantlar" haylar üçün, onların ölkələri üçün cari ildə heç də yaxşı gözləntilər vəd etmir. Belə çıxır ki, haylar ən xırda yanlışlıq müqabilində ancaq bu il məhz Ermənistan adlı qondarma da olsa bir dövlətin dünyanın siyasi xəritəsindən silinməsini gözləyə bilərlər və görünür elə bu gözləntilər onların kürklərinə birə salıb və yuxularını da ərşə çəkib...

***İnam Hacıyev***

# Dünya mediası: “Azərbaycan Prezidenti təyyarə qəzası ilə bağlı günahkarların cəzalandırılmasını tələb edib”

























Türkiyə mediası Azərbaycan Prezidenti İlham Əliyevin qəzaya uğrayan AZAL təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri, eləcə də sağ qalan bələdçilər ilə görüşündə səsləndirdiyi fikirləri geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, qardaş ölkənin media orqanları Azərbaycanın Liderinin ölkə vətəndaşlarının həlak olmasında Rusiya nümayəndələrinin təqsirinin olması ilə bağlı sözlərini sitat gətirib. Eyni zamanda, Prezident İlham Əliyevin ədalətin təmin edilməsi və faciə ilə bilavasitə əlaqəsi olan bütün şəxslərin cəzalandırılması ilə bağlı tələblərinə diqqət çəkilib. Azərbaycanın qəza ilə bağlı tam şəffaflıq və insani davranış tələb etdiyi vurğulanıb.

Bildirilib ki, “Embraer 190”ın “qara qutu”larının Braziliyaya göndərilməsi barədə məlumat verilər ki, bu da Bakı-Qroznı reysində 38 sərnişinin həyatına son qoyan qəzanın obyektiv şəkildə araşdırılmasına imkan verəcək. Materiallarda Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan dövlətinin başçısına üzrxahlıq etdiyi də xatırladılıb.

Ukraynanın nüfuzlu media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşündə söylədiyi fikirlərə geniş yer ayırıb.




Belə ki, “Ukrinform”, “RBK-Ukrayna”, “UNİAN”, “İnterfaks-Ukrayna”, “Korrespondent”, “Yevropeyskaya Pravda” və digər onlarla informasiya agentliyi, xəbər portallarında dərc olunan məqalələrdə Prezident İlham Əliyevin Aktau şəhəri yaxınlığında “Azərbaycan Hava Yollarına” (AZAL) məxsus təyyarənin qəzaya uğraması ilə bağlı rəsmi Bakının mövqeyinə dair fikirləri işıqlandırılıb.

Xəbərlərdə dövlətimizin başçısına istinadən qeyd olunur ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya tərəfinin üzərindədir. Azərbaycan ədalət tələb edir, günahkarların cəzalandırılmasını tələb edir, tam şəffaflıq və insani davranış tələb edir.

Məqalələrdə Prezident İlham Əliyevin hazırda “qara qutu”ların şifrəsinin açılması prosesinin getdiyini söylədiyi vurğulanıb. Yaxın vaxtlarda ilkin nəticələrin aydın olacağı və hər şey öz yerini tutacağı qeyd edilib.

Yazılarda dövlət başçımızın fikirlərinə istinadla daha sonra bildirilir: “Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar”.



# XİN: Fransadan regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik

Fransa Prezidentinin Azərbaycana qarşı səsləndirdiyi növbəti əsassız iddiaları və real faktları təhrif edən təxribat dolu açıqlamaları qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə səfirlər konfransında Azərbaycan əleyhinə səsləndirilən iddialar barədə medianın sualına cavabında deyib.

O bildirib ki, özünü beynəlxalq hüququn müdafiəçisi kimi təqdim edən Fransa Azərbaycana münasibətdə beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasını, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətini, kütləvi qırğınları və insanlıq əleyhinə cinayətləri heç vaxt tənqid etməyib. “Fransa tərəfinə bir daha xatırlatmaq istərdik ki, Azərbaycanın öz suveren ərazilərində beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə həyata keçirdiyi haqq-ədalət mübarizəsi yalnız Ermənistanın işğalına son qoymaq məqsədilə aparılıb.

Bölgədə sülh üçün real şərait yarandığı bir dönəmdə, Azərbaycanın öz əraziləri üzərində suverenliyini sual altına qoyan, Ermənistanı revanşizmə hazırlayan, bu ölkənin geniş şəkildə silahlanmasını həyata keçirən Fransanın bu kimi təhrikçi açıqlamalarını qətiyyətlə pisləyirik.

Fransanın məkrli neokolonial siyasətinin təzahürü olan dənizaşırı ərazilərində apardığı uğursuz fəaliyyətin səbəblərinin Azərbaycan üzərinə yönləndirilməsi isə Fransanın yanlış siyasətindən xəbər verir. Digər ölkələri təqsirləndirmək əvəzinə, Fransanın səriştəsiz xarici siyasətindən dərs çıxarması daha faydalı olardı. Fransadan sülhə xidmət etməyən və regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik”, - deyə Azərbaycan XİN rəsmisi vurğulayıb.

# YAP 2025-ci ilə uğurlu nəticələr, mükəmməl proqramla qədəm qoydu



## Bələdiyyə seçkilərinin mütləq qalibi Yeni Azərbaycan Partiyasının olacağı şübhəsizdir

Bu gün birmənalı mövqe ondan ibarətdir ki, xalqın partiyası olan Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, ümumiyyətlə MDB-də ən güclü, demokratik, sivil lider partiyalardandır. Azərbaycanda Yeni Azərbaycan Partiyası ilə rəqabət apara biləcək siyasi partiya yoxdur. Fateh Sərkərdə, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev çıxışlarının birində dediyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib". 2024-cü il Yeni Azərbaycan Partiyası üçün digər illər də olduğu kimi uğurlu və yaddaqalan oldu. Partiya dünyanın bir sıra sağ mərkəzçi hakim partiyaları ilə əlaqələrini bir qədər də inkişaf etdirdi. Müxtəlif ölkələrin hakim partiyaları ilə əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, qarşılıqlı səfərlərin təşkil edilməsi, görüşlərin keçirilməsi partiyanın dünya miqyasında mövqelərinin güclənməsinə və nüfuzunun daha da yüksəlməsinə təkan oldu. Yeni layihələrin icrasında fəal iştirak edən YAP ölkədə demokratik proseslərin inkişafında, insanların ictimai-siyasi həyatda fəallığının artırılmasında mükəmməl fəaliyyət ortaya qoydu. Böyük nailiyyətlə imza atan YAP 2025-ci ilə uğurlu nəticələr, mükəmməl proqramla qədəm qoydu. Söz yox ki, yeni hədəflərə nail olmaqla və layihələri icra etməklə YAP cəmiyyətin inkişafına yardımçı olmaqla yanaşı partiyanın nüfuzunun daha da artmasına təkan olacaq.

Yeni Azərbaycan Partiyası Dahi Öndərimiz Heydər Əliyev tərəfindən yarandığı gündən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Qarşıya qoyulan vəzifələrə, məqsəd və hədəflərinə çatmaq üçün YAP yorulmadan çalışıb və prinsipiallıq göstərib. Nəhayət, Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün Prezident İlham Əliyevin möhtəşəm şəkildə həyata keçirdiyi siyasətin uğurla nəticələnməsinə nail olub. Bu gün Ulu Öndərimiz Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaq" tarixi kəlamı tam şəkildə reallaşır. 2003-cü ildən bəri Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bir sıra beynəlxalq təşkilatlarla və ayrı-ayrı dövlətlərlə iki və çoxtərəfli səmərəli əməkdaşlıq əlaqələrinə malikdir. Ölkəmiz Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər qurumlarda öz mövqeyini daha da gücləndirib. Xüsusən də, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin liderliyi qlobal həmrəyliyin təmin olunmasına mühüm töhfələr verib. Balanslı və çevik xarici siyasət yürüdən Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi enerji diplomatiyası ölkəmizi Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirib. Xəzər dənizindən Avropaya enerji tədarükü üzrə layihələr, o cümlədən TANAP və TAP boru kəmərləri bu siyasətin uğurlu nəticələridir. Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi etməsi ölkəmizə dünya miqyasında böyük nüfuz və hörmət qazandırdı.



### Yeni-yeni şərəfli tarix yazılır

Birmənalı mövqe ondan ibarətdir ki, ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası dünyada 2024-cü ildə baş tutan ən mötəbər tədbirlərdən biri idi. Söz yox ki, 2024-cü ilin dekabrında 200 dövlətin yekdil qərarı ilə bu tədbirə ev sahibliyinin Azərbaycana həvalə olunması Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin və ölkəmizə çox böyük etimadın, yüksək inamın göstəricisidir. Məhz Prezident İlham Əliyevin dünyada böyük hörmətinin olması, COP29 konfransının Azərbaycanda keçirilməsinə imkan yaratdı. Hələ COP29 ərəfəsi 100-dən çox tədbir keçirildi. COP29-da iştirak etmək üçün 196 ölkədən 72 min iştirakçının qeydiyyatdan keçməsi, qonaqlarının arasında 80 prezidentin, vitse-prezidentin və Baş nazirin olması isə həm dövlətimizə etimadın, həm də onun beynəlxalq arenada oynadığı fəal rolun növbəti dəfə sübutu idi. Azərbaycan COP29-a yüksən şəkildə ev sahibliyi etməklə bu mötəbər tədbirlə bağlı göstərilən etimadı layiqincə doğrultdu. İstər qonaqların tədbirin yüksək səviyyədə təşkil olunması barədə fikirləri, istərsə də Bakıda qəbul olunan mühüm qərarlar bunun sübutudur. COP29-un ən mühüm tədbiri iki gün davam edən Liderlər Sammiti idi. Azərbaycan Prezidenti İlham Əliyevin Liderlər Sammitinin açılış mərasimində çıxışı iştirakçılarda böyük maraq doğurdu. Prezident İlham Əliyev çıxışında COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürünü bildirdi: "Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".

Prezident İlham Əliyev ərazilərimizin işğaldan azad edilməsindən və orada aparılan tikinti, bərpa işlərindən, eləcə də insanları öz doğma yurd-yuvalarına qayıdışından danışarkən, bildirdi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik: "Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi".

Azərbaycan Prezidenti İlham Əliyev COP29 konfransını boykot etmək istəyənləri diplomatik dillə tənqid etdi: "Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"

### YAP qələbələr partiyası olduğunu əməli fəaliyyəti ilə təsdiqləyir

Təbii ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yüksək səviyyədə keçirilməsində xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının da müstəsna rolu və əməyi oldu. Partiyanın minlərlə üzvü COP29 konfransının işində yaxından iştirak etməklə bir daha ölkənin ictimai siyasi həyatında öndə olduğunu nümayiş etdirdi. Ümumiyyətlə, birmənalı şəkildə qeyd etmək olar ki, YAP cəmiyyətin simasıdır. YAP Azərbaycanın döyünən ürəyi, vuran qəlbidir. YAP-a olan yüksək inam və etimad bu siyasi təşkilatın günü-gündən sıralarının genişlənməsinə, mövqelərinin daha da güclənməsinə təkan verir. Bu gün Yeni Azərbaycan Partiyası Cənab İlham Əliyevin




rəhbərliyi ilə Cənubi Qafqazın ən güclü siyasi təşkilatı statusunu daşıyır. YAP-ın sıralarında təmsil olunan 800 min nəfərə yaxın insan böyük güc olaraq Prezidentimiz, Fateh Sərkərdə İlham Əliyevin ətrafında sıx birləşməklə böyük qələbələrə, nailiyyətlərə imza atır. Şübhəsiz ki, əldə olunan, qazanılan qələbələr davamlı olacaq. Bu mənada demək olar ki, hər seçkidən seçkiyə daha da güclənən və mükəmməl təcrübələr qazanan YAP yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərinin qalibi olacaq. Nəzərə almaq lazımdır ki, 2024-cü il sentyabrın 1-də keçirilən parlament seçkilərində 68 deputat yerinə sahib olmaqla Milli Məclisdə əsas çoxluqda yenə də YAP oldu. Bu da təbii və gözlənilən haldır. Çünki Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu və bu gün Fateh Sərkərdə, Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP xalqın dəstəklədiyi və böyük etimad göstərdiyi yeganə partiyadır. Bu baxımdan tam əminliklə demək olar ki, bələdiyyə seçkilərinin də mütləq qalibi Yeni Azərbaycan Partiyası olacaq. Artıq YAP seçki hazırlıqlarını yüksək səviyyədə təşkil edib və namizədlərini müəyyənləşdirərək, yanvarın 6-dan seçkilərin təbliğat-təşviqat kampaniyasına start verib. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib. Müşavirədə Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsi üzrə irəli sürdüyü bütün namizədlərin qeydə alındığı vurğulanaraq onlara uğurlar arzulanıb. Sonra YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, ötən müddət ərzində nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi qeyd edilərək yerli seçki qərargahlarının fəaliyyəti müsbət qiymətləndirilib. Yanvarın 6-dan başlayan seçkiqabağı təşviqat mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılaraq müvafiq tapşırıq və tövsiyələr verilib, YAP Mərkəzi Aparatı tərəfindən hazırlanmış seçki proqramı və digər təşviqat materialları yerli seçki qərargahlarının sədrlərinə təqdim olunub. Seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidə aparılması qaydaları, müşahidəçilərin hüquq və vəzifələri ilə əlaqədar maarifləndirmə məqsədilə istər məsrəfsiz səs hüquqlu üzvlər, istərsə də seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslər üçün keçiriləcək təlimlərin önəmi vurğulanıb.

Yeni Azərbaycan Partiyasının 2025-ci il yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı seçki proqramının qəbul edilməsi və proqramda seçicilərə olunan müraciətdə bir sıra prinsipial və aktual məsələlərin yer alması partiyanın hər bir irili-xırdalı məsələlərə həssaslıqla və ehtiramla yanaşdığını göstərir. Partiyanın böyüklüyü və əhəmiyyətli gücünün olmasının göstəricisi də, məhz bu kimi məsələlərə xüsusi diqqət ayırması ilə bağlıdır. Ona görə də, bu böyük və xalqın inam yeri olan YAP 29 yanvar bələdiyyə seçkilərinin qalibi olacağı şübhəsizdir.

**İLHAM ƏLİYEV**

# 21 il inam və ləyaqətlə inkişaf edən Azərbaycan!



## *Prezident İlham Əliyev: "Biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik"*

***Qloballaşan dünyada sülhün olması və qorunması vacib hesab olunur. Sülh bugünki dünyanın, zamanın tələbinə çevrilib. Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginliklər məhz sülhün bərqərar olunmasını tələb edir. Sülh əlbəttə ki, dövlətlərin bir-biri ilə münasibətlərində anlaşma və qarşılıqlı münasibətlər fonunda yaranır və dərinləşir. Müharibələr, zorakılıq, dini zəmində qarşıdurmalar, kəskin münaqişələrin yaranması sülhün pozulmasına rəvac verir.***

Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun cənubi qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Bu baxımdan, müasir dövrdə azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə təsir göstərmək imkanı qazanaraq, sülhsevər siyasətini həyata keçirir. Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirdiyi kimi, "Bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar davam edir. Azərbaycan isə sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra sabitlik və əmin-amanlıq əbədi olacaqdır". Azərbaycanın 2024-cü ili uğurla başa vurduğunu qeyd edən dövlət başçımız ilin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələlərin öz həllini tapdığını bildirmişdir: "Ölkəmiz inamla inkişaf etmişdir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Ölkə iqtisadiyyatında müsbət inkişaf var, hərbi gücümüz artıb. Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır".

### "QAZAX RAYONUNUN DÖRD KƏNDİNİ GERİ ALDIQ, BİR GÜLLƏ ATILMADAN, SİYASİ YOLLARLA"

2024-cü ildə bir çox önəmli hadisələrin baş verdiyinə nəzər salan Azərbaycan Prezidenti onların arasında ən vacib məsələnin Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal altına düşmüş dörd kəndinin işğaldan azad edilməsi olduğunu diqqətə çatdırıb. Qazax rayonunun 30 il işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri Azərbaycana geri qaytarıldı. Bu razılaşma Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın 2024-cü il 19 apreldə əldə olunmuş razılaşma əsasında həyata keçirilib. Delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilib və Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 kv. kilometr) Azərbaycana qaytarılması təmin edilib.

"Bu kəndlər haqqında biz heç vaxt öz mövqeyimizdən bir addım belə geri atmamışdıq. Bu kəndləri biz heç vaxt unutmamışdıq. Sadəcə olaraq, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının öz məntiqi var idi. Hər şeyi, bütün məsələləri biz inamla və ardıcıllıqla həll etdik. Birinci mərhələdə Qarabağın və Şərqi Zəngəzurun böyük hissəsini 2020-ci ildə Vətən müharibəsində işğalçılardan azad etdik. İşğal altında qalan hissə keçən il antiterror əməliyyatı nəticəsində işğalçılardan azad edildi və Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Biz bu il Qazax rayonunun dörd kəndini geri aldıq, bir güllə atılmadan, siyasi yollarla. Amma o da həqiqətdir ki, əgər son dörd ilin Azərbaycan-Ermənistan münasibətlərində baş vermiş hadisələr baş verməsəydi, əlbəttə, Ermənistan heç vaxt öz xoşu ilə bu kəndləri bizə qaytarmazdı. Onlar məcburiyyət qarşısında bunu etdilər, bizim siyasi, hərbi gücümüzü dərk edərək buna getdilər və mən ümid edirəm ki, bundan sonra da Ermənistan öz siyasətində Cənubi Qafqazda eyni zamanda, dünyada yaradılmış yeni reallıqları nəzərə alacaq", - deyə Prezident bildirib.

Qazaxın 4 kəndinin 1 güllə atılmadan qaytarılması isə Azərbaycanın suverenliyinin təmin olunmasında daha bir önəmli addımdır. 1992-ci ildən Ermənistanın qanunsuz işğalına məruz qalan həmin kəndlər ölkə başçısının iradəsi ilə Azərbaycana qaytarıldı. Şübhəsiz ki, Qazaxın 4 kəndinin dinc yolla qaytarılması Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın 44 günlük Vətən Müharibəsi, 2022-ci ilin sentyabr döyüşləri və 2023-cü ilin sentyabrında Qarabağda həyata keçirdiyi anti-terror tədbirləri ilə əldə etdiyi zəfərin davamıdır.

### "QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN BƏRPASINA AZƏRBAYCAN 19 MİLYARD MANATDAN ÇOX VƏSAİT AYIRIB"

Azərbaycan 30 ilə yaxın işğalda olan torpaqlarını azad etmək məqsədi ilə sülh danışıqları aparsa da, bu nəticəsiz qaldı. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqda idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq tribunallardan respublikamızın münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildirsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərirdi. Ermənistan, nəinki atəşkəsə əməl etmir, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələbləri kobud şəkildə pozmaqda davam edirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən və beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görsə də, Ermənistan çirkin niyyətindən əl çəkmədi. nəhayət, Azərbaycan 44 günlük vətən müharibəsində torpaqlarını işğaldan azad etdi, tarixi ədalət bərpa olundu. Bu gün Azərbaycan yeni reallıqlar yaradıb: "Cənubi Qafqazda yeni reallıqları biz yaratdıq. Vətən müharibəsi bu reallıqları yaratdı, dövlət suverenliyimizin bərpası bu reallıqları daha da gücləndirdi və biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik. Bütün dünya yeni reallıqları qəbul edib ", - deyən Prezident Qarabağ və Şərqi Zəngəzurda aparılan abadlıq-quruculuq işlərinə də nəzər salıb. Bu il bu işlərin reallaşmasına 4 milyard manat ayrılıb. "Bunun tam əksi ola bilərdi. Sadəcə olaraq, Ermənistan və onun arxasında duran və onlara pis məsləhətlər verən ölkələr buna imkan vermir. Bununla belə, Qarabağın və Şərqi Zəngəzurun bərpası uğurla gedir. Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Gələn il təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır", - deyə Prezident bildirib.

### "HAZIRDA 72 MİLYARD DOLLARDAN ÇOX VALYUTA EHTİYATLARIMIZ VAR"

Bu işlərin reallaşmasında iqtisadi gücümüzün olması vacib amillərdəndir. Burada da yaxşı nəticələrin olduğunu bildirən Prezident diqqətə çatdırıb ki, bu il ümumi daxili məhsul 4 faizdən çox, qeyri-neft sektorunda ümumi daxili məhsul 6 faizdən çox, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Biz öz valyuta ehtiyatlarımızı artırmışıq və hazırda 72 milyard dollardan çox valyuta ehtiyatlarımız var: "Eyni zamanda, xarici borcumuzu da azaltmışıq və bu gün Azərbaycanın xarici borcu cəmi 5,2 milyard dollardır. Yəni, başqa sözlə desək, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. İndi əgər bu rəqəmlərə yaxın olan rəqəm hər hansı bir inkişaf etmiş ölkədə varsa, onu mənə göstərsinlər. Bütün bu işləri görməklə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, hərbi gücümüzün artırılması, sosial layihələrin icra edilməsi ilə yanaşı, biz bax, bu önəmli makroiqtisadi rəqəmləri əldə etmişik. Həm borcumuzu azaltmışıq, həm ehtiyatlarımızı artırmışıq və bu, imkan verir ki, biz geniş sosial proqramlar icra edək. Deyə bilərəm ki, 2019-cu ildən bu yana dörd sosial paket layihəsi, proqramı icra edilmişdir. Gələn il beşinci paket icra ediləcək. Bu layihələrə ayrılan və ayrılacaq vəsait 7,5 milyard manat olacaq".

### "İNSANLARIN GÜZƏRANI, İNSANLARIN SOSİAL MÜDAFİƏSİ DAİM DİQQƏT MƏRKƏZİNDƏ OLACAQDIR"

Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 21 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Dövlətimizin başçısı ölkəyə rəhbərliyi dövründə hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. Ölkəmizdə son 21 il ərzində bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir.

23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. "2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılacaq. Artım təxminən 14-15 faizdir. Yəni, yenə də bütün bu böyük investisiya, sərmayə qoyuluşu layihələrinin icrasına baxmayaraq, sosial sahə, insanların güzəranı, insanların sosial müdafiəsi daim diqqət mərkəzində olacaqdır", - deyə dövlət başçımız bildirib.

### "AZƏRBAYCANA QARŞI BU DİSKRİMİNASİYA VƏ AYRI-SEÇKİLİK, ŞƏR, BÖHTAN SİYASƏTİNƏ SON QOYULACAQ"

Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Bu il COP29 tədbirinin yüksək təşkilatçılığı, uğuru Azərbaycanın beynəlxalq nüfuzunun daha bir təqdimatı oldu. "Bu il Azərbaycanda COP29 iqlim konfransı keçirildi.

Deyə bilərəm ki, bu, bizim müstəqillik tariximizdə ən böyük beynəlxalq tədbirdir və hesab edirəm ki, dünya miqyasında ən böyük və mötəbər beynəlxalq konfransdır. Cəmi on bir ay ərzində biz bu böyük tədbiri uğurla keçirdik. Qeydiyyatdan keçmiş 76 min iştirakçı öz gözləri ilə Azərbaycanın potensialını bir daha gördü. 197 ölkə, 80 dövlət və hökumət başçısı və vitse-prezident iştirak edib. Bu, bir daha göstərir ki, COP29-u Azərbaycana qarşı istifadə etmək istəyən bəzi Qərb ölkələrinin, onların nəzarətində olan dırnaqarası qeyri-hökumət təşkilatlarının və saxta media orqanlarının - onların bütün səyləri əbəs oldu on bir ay ərzində. Bu, hələ də davam edir. COP-dan sonra da artıq iki aya yaxındır davam edir, bizə qarşı şər, böhtan, yalan, iftira, uydurma kampaniyası aparılır - Azərbaycanı qaralamaq, Azərbaycanın imicinə zərbə vurmaq. Onun arxasında duran ölkələrin adlarını mən heç çəkmək də istəmirəm. Azərbaycan xalqı o ölkələri yaxşı tanıyır. Qeyri-hökumət təşkilatları hansı mənbədən vəsait alır, hansı paytaxtdan göstəriş alır, onu da Azərbaycan xalqı yaxşı bilir. Ümid edirəm ki, gələn ilin yanvarın sonlarından başlayaraq artıq Azərbaycana qarşı bu diskriminasiya və ayrı-seçkilik, şər, böhtan siyasətinə son qoyulacaq", – deyə Prezident qeyd edib.

### ZƏFƏR SEÇKİLƏRİ - YENİ DÖVRÜN BAŞLANĞICI

2024-cü il fevralın 7-də Azərbaycanda şəffaf şəkildə keçirilən növbədənkənar Zəfər seçkiləri ölkənin demokratik inkişaf tarixinə daha bir uğur səhifəsini yazdı. Müstəqillik tariximizdə ilk dəfə olaraq ərazi bütövlüyünü və suverenliyini bərpa edən bütöv Azərbaycanda keçirilən seçkilər hər bir azərbaycanlını qürurlandırdı. Azərbaycan yeni dövrə qədəm qoydu. Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə verilən hər bir vəd, qarşıya qoyulan vəzifələr yerinə yetirildi və təsadüfi deyil ki, Cənab İlham Əliyev 92,12 faiz səslə yenidən prezident seçkilərində qalib gəldi. Yeni dövrün başlanğıcı kimi dəyərləndirilən bu seçkilər ölkəmizin qarşısında yeni imkanlar yaradır. 30 illik torpaq həsrətinə son qoyan tarixi Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır.

### "DÜNYA GÜCLƏRİNİN İSTƏKLƏRİNƏ RƏĞMƏN, DÖVLƏT SUVERENLİYİMİZİ DƏ BƏRPA ETDİK"

Azərbaycan tarixinin səhifəsinə yazılan 7 fevral ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri müdrik xalqımızın yekdilliyi ilə, həmrəyliyi ilə yeni tarixinizə möhrünü vurdu. Xalqımız həmrəyliklə öz tarixi seçimini edərək bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verdilər. Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə seçkilər Azərbaycanın bütün ərazilərində keçirildi. Bu gün Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirildi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkünlər yurdlarında seçici olaraq səs verdilər. Bu da daha bir tarixi hadisəyə çevrildi. Əlbəttə ki, Zəfər seçkiləri yeni dövrün başlanğıcıdır. Seçkilərdə qazanılan bu Zəfər Azərbaycan xalqının Prezidentinə inamının, etimadının təzahürüdür. "Bu il Azərbaycan xalqı bir daha mənə böyük etimad göstərmişdir. Prezident seçkilərində mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha da gücləndirir. Daha da çox məni əmin edir ki, biz düzgün yolla irəliyə gedirik və bundan sonra da mən bu yüksək etimadı doğruldacağam. Hesab edirəm ki, Azərbaycan xalqında bu məsələ ilə bağlı hər hansı bir şübhə yoxdur. Azərbaycan 21 ildir inamla, uğurla, ləyaqətlə inkişaf edir", - deyən Prezident bildirib ki, bu illər ərzində çətinliklər də olub, sınaq məqamları da olub, müharibələr olub, bizə qarşı əsassız ittihamlar olub: "Amma heç biri, heç biri bizi yolumuzdan döndərə bilmədi. Biz ərazi bütövlüyümüzü də bərpa etdik, dünya güclərinin istəklərinə rəğmən, dövlət suverenliyimizi də bərpa etdik, yenə də böyük dövlətlərin iradəsinə zidd olaraq. Ölkəmizi də inamla idarə edirik. Bizim ayağımıza dolaşmaq istəyənlər isə növbəti dəfə iflasa uğrayacaq".

***Zümrüd BAYRAMOVA***

# Co Bayden jurnalistlərlə kobud danışdı - SƏBƏB?



ABŞ prezidenti Co Bayden yanvarın 5-də jurnalistlərlə qısa söhbət zamanı onlarla sərt danışıb. SİA xəbər verir ki, istefa verən Amerika administrasiyasının rəhbərinin sözlərini Ağ Evin mətbuat xidmətinin müxbirləri dərc ediblər. Miqrasiya böhranı problemini həll etmək üçün nəyə icazə verilməməli olduğunu müzakirə edərkən, Bayden qəfildən özünü itirib, cümləni tamamlamağa imkan verməyib. "Mən ən qoca prezident ola bilərəm, amma mən sənin bütün lənətə gəlmiş ömrün boyu tanımadığın dünya liderini tanıyıram. Və onların necə düşündüyünü bilirəm. Mən zarafat etmirəm", - deyə bildirib.

Bundan əvvəl Co Bayden yenidən Rusiya lideri Vladimir Putin haqqında təhqiramiz ifadələr işlədib. Amerika prezidenti Donald Trampı da incitməyə çalışıb. Bundan əvvəl də Co Baydenin prezidentliyi dövründə ABŞ-ı borc batağına sürüklədiyi bildirilib. Pandemiya zamanı amerikalılara kömək etmək üçün nəzərdə tutulan pulun böyük hissəsi saxta sxemlər vasitəsilə oğurlanıb.

***V.VƏLİ***

# Zamin hansı hallarda ödəniş etməkdən azad ola bilər?

***"Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 470-ci maddəsində zaminlik ilə bağlı göstərilmişdir. Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür.***



Zaminlik müqaviləsi gələcəkdə yarana biləcək öhdəliyin təmin edilməsi üçün də bağlana bilər. Zaminlik müqaviləsi yazılı formada bağlanmalıdır". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: "Mülki Məcəllənin 472.2 maddəsində göstərilib ki, əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısında borclu ilə eyni həcmdə məsuliyyət daşıyır. Zaminlik öhdəliyi kredit müqaviləsi bitənədək davam edir. Lakin Mülki Məcəllənin 477-ci maddəsinə əsasən zaminliyə aşağıdakı hallarda xitam verilir:



### AYDINLIQ GƏTİRİLDİ

477.0.1. zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda;

477.0.2. əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməmişsə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə;

477.0.3. kreditor borclunun və ya zaminin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə;

477.0.4. zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir.

Mülki Məcəllənin 386.1-ci maddəsi bəzi istisnalarla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilənin bağlanmalı olduğunu müəyyən edir. Həmin maddədə nəzərdə tutulmuşdur ki, öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır, yəni borclunun kreditor qarşısında olan öhdəliyi müqavilə ilə müəyyən edilməlidir".

***Ayşən Vəli***

# Müşfiqsiz 87-ci 6 yanvar: O, yenə gözəl xatırlanır



***Şair olmaq heç də asan deyil. Fərqli yaradılmalısan. Bir küçədən, bir dalandan keçəndə, bir bağa yolun düşəndə sübhün şehini yarpaqlar üzərində görməyi bacarmalısan. Payızın xəzəlinin pıçıltısını duymalısan. Qisməti, taleyi ayaqlar altında xışıltı nəğməsi oxumaq olan yarpaqlarla danışmalısan. Bir bağın gülünün, çiçəyinin bəzən qönçəsi, bəzən günəşə boylanan tam açmış gözəli, bəzən solub kolların altına tökülən ömrü bitmiş ləçəyi olmalısan...***




Şair olmaq asan deyil... Onların ürəyi tam başqa olur. Gözləri tam başqa baxır, beyinləri tam başqa çalışır. Bir söz eşidəndə qulaqlarından birbaşa qəlblərinə axır, oradakı ələkdən keçib ya sözə çevrilib kağızlar üzərinə səpələnir, ya da ruha çöküb oradaca qalır, saçları ağardır... Onlar baxdıqlarını həm də görəndirlər. Təbiətin bir gözəlliyinə, bir qəribəliyinə, küçədəki bir gözələ, xiyabandakı bir ağaca, çiçəyə, şəhərdəki minlərlə insana hamı baxır, lakin görmək bir ayrıdır, yanaşmalar, hiss edilənlər və bir də ən əsası duyğular tam başqadır... 117 il əvvəl isti yay günlərindən birində dünyaya gözlərini açan, bəhs etdiyim bu duyğuların hər biri anadangəlmə qanına, canına hopan, qışın oğlan çağında-yanvarda isə qısacıq ömrü tamamlanan bir Müşfiq vardı. Ətrafa qəlbinin gözləri ilə baxan, ürəyi Vətəninə, anasına, sevdiyinə və ümumilikdə gördüyü hər nələrəsə qəribə bir məhəbbətlə dolu Müşfiq... Bu dünyadan cəmi 29 il, 8 ay qoparıb ona baxmağı bacaran, sevgisi yarımçıq, ömrü yarımçıq Müşfiq... Heç Dilbərindən doymayan, sevgilisinə illərini verə bilməyən Müşfiq... Dünyanın ən gözəl ətrini-övlad ətrini ciyərlərinə çəkib gözlərini yumaraq nəfəsini buraxdığı an qədər onun sahibi olan, gözlərini açdığı an əllərindən axıb gedən bala həsrətli Müşfiq...

## Bir qərinəyə yaxın

Cəmi bir qərinəyə yaxın ömrünün silinməz izlərini bu xalqın ədəbiyyat tarixinə möhürləmişdir. Ən gözəl təbiət, sevgi nəğmələrini bizə qoyub getmişdir. O nəğmələr ki, o gün bu gün milyonlarla gəncin sevgi nəğmələridir. Məktublarda, ismarıclarda sevgi mesajlarıdır. Yəni sevənin sevdiyinə sevgisini o şeirlərdən gözəl anladanı varmı? Çünki o şeirlər bütün gənclərin sevdiyi yaşda yazılmışdı. Çılğınlıqla, sevginin gözlərini yumub, qəlbin gözlərini açmaqla, yalnız bu gözlərin gördüyü, hiss etdiyi duyğularla yazılmışdı:

Göy üzünə bircə bax, hər ulduz bir sarı gül,
Yarı qönçə, yarı gül.
Səni gördüm, xəyalım o qədər yüksəldi ki,
Mənə öylə gəldi ki,
Bizə bu nazlı aləm görünərdi qaranlıq,
Gözəl çarpışmasaydıq, gözəl yaşamasaydıq.

Axı sevdiyi insanın hər anı xoş gəlir insana. Düşünürsən ki, o gülüş, o yeriş, o cizgilər ondan başqa heç kimdə belə gözəl deyil. Elə Müşfiq də belə düşünüb, belə yazırdı:

Sənin gülüşlərin bir ruzgar kimi
Əsərkən arzumun gülü açılır.
Gülsə dodaqların ulduzlar kimi
Ruhuma bir sərin işıq saçılır.

Sevgi oxşayır sevənin ruhunu, alır onu özündən, yerdəmi, göydəmi olduğunu hiss etmir. Bəzən araya inciklik düşər, sevənə bu an rüzgar kimi gələr, bəzən ayrılıq düşər, sevənə bu qar kimi gələr, lakin bütün bunların fövqündə dəruni bir hiss var, adı sevməkdir. Uzaqları yaxın, inciklikləri şirin edən, hər halı ilə sevgini dərinləşdirən, qəlbi dindirən sevgi. Müşfiqin sevgisi:

Sevgi vardır ki, dodaqlarda açar gülləri-ni,
Sevgi vardır ki, bir az qar kimi, rüzgar kimidir.
Sevgi vardır oxudur qəlbdə bülbülləri,
Böylə bir sevgi mənim ruhumu oxşar kimidir.

## Günlərin bir günü sevdaya düşəndə necə Müşfiqi anmayasan?

Mən ki, bilməz idim nədir məhəbbət.
Bu sirri sən mənə anlatmadınmı?
Dünyaya sığmayan şair könlümü
Köksümdən çıxarıb oynatmadınmı?



Və milyonlarla gəncin verdiyi qərar da elə şairin verdiyi qərar kimi olur:

Mehriban sevgilim qarşımda durdu,
Yenə şairliyim başıma vurdu,
Məndən məcnun könül maraqla sordu:
-Bu saçı leyladan necə əl çəkim?

Açıq pəncərələrdən bayıra süzülən tarın nəğməsidir, Müşfiq. Bir tarın susmasıyla bir xalqın susmasına, hüriyyətinə çağırış səsidir onun səsi:

Oxu, tar!..
Utanma, oxu, tar!
Mədənli Bakımın,
Pambıqlı Gəncəmin,
İpəkli Şəkinin
Acısı, şərbəti,
Alovlu sənəti!

Yay gələ, bağ vaxtı ola, necə anmayasan şairi ki:

Yenə o bağ olaydı, yenə yığışaraq siz,
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim.
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,
Yazaydım səhər-axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?-, deyirdi, hisslərini, duyğularını misralara köçürməklə yaşayırdı.

## Ömrün sonuna doğru

ARAYIŞ. NKVD-nin 27 may 1937-ci ildə təhlükəsizlik kapitanı Çinmanın tərtib etdiyi arayışda qeyd olunmuşdu: "Mikayıl Müşfiq hal-hazırda "Müsavat" gənclər təşkilatı ilə əlaqə saxlayıb, partiya və hökumətin ünvanına böhtanlar deməkdən çəkinmir" .

Bundan əlavə arayışda Müşfiqin "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" kimi qızışdırıcı sözləri ilə xalqın arasında narazılıq yaratmaq istəyi iddia olunurdu. Həbs olunmuş müttəhimlərin "könüllü" surətdə yazdığı izahatlar da nəzərə alınmış və müstəntiq tərəfindən hazırlanan həmin arayışa əsasən Mikayıl Müşfiqin adına iyunun 3-də 508 nömrəli order yazılmış, cümə günü, iyun ayının 4-də isə evində həbs edilmişdi.

Hüseyn Cavid, Əhməd Cavadla eyni fikirli, eyni ruhlu gənc şair, bəli, Azərbaycanın hüriyyəti, azadlığı üçün mübarizə aparanlardan idi. Üsyankar şair "Azərbaycanın öz azadlığı yoxdur, o, Rusiyanın koloniyasında yaşayır" sözlərini demişdi. Stalini, Lenini, sovet quruluşunu mədh edən əsərlər də yazmışdı. Lakin bu əsərlər sadəcə gözdən pərdə asıb arxasında xalqının istəklərini həyata keçirmək üçün Müşfiqin həmin quruluşa nifrətinin məhsulları idi. Bütün bunlar isə kənardan açıqca görünürdü. Və şairin ətrafındakı paxılların satqınlığı onun gənc ömrünün baharını qışa çevirməkdəydi. Özünün də dediyi kimi:

Mən gəncəm bilirəm istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var.
Yelkənim açılır, qara yel əsmə,
Mənim bu dəryada bir sandalım var!

Bir külək əsirdi şairə sarı. Qorxulu bir külək. Qoparıb onu elindən, Dilbərindən, qələmindən, dostundan aparmaq istəyirdi. Apardı da. Şairin "Küləklər"i kimi:

Bəziniz qorxulu, bəziniz qorxusuz,
Bəziniz duyğulu, bəziniz duyğusuz,
Bəziniz uyqulu, bəziniz uyqusuz,
Küləklər, küləklər, ey sərin küləklər,
Sizdə var qoxusu hər yerin, küləklər!

## Son doğum günü

1937-ci il iyunun 5-də şairin 29-cu doğum günündə ilk istintaq keçirilir. Bu, şairin son doğum günü olur. Günahsızlar kürsüsündə müttəhim kimi doğum gününü qarşılayan şairin. Və 5 iyun istintaqı özündən sonrakı bir neçə istintaqla şairi 30 yaşa çatdırmayacaq bir nöqtəni qoyacaqdı. Müşfiqin nakam ömrünün nöqtəsini. Bu nöqtə repressiyanın yüzlərlə qurbanı üçün qoyulsa da, həm də ədalətsizliyə xitam nöqtəsi idi. Odur ki, bu dünyanın Müşfiq kimi ədalətli insanları hər zaman özünün də yazdığı kimi gözəl xatırlanacaqlar:

Məni gözəl xatırla,
Bunlar son misralar
Fərz et ki, bir külək idim, əsib keçdim həyatından
Ya da bir yağmur, sel oldum çöllərdə
Sonra torpaq çəkdi suyu canına
Yox olub getdim, bəlkə röya idim səninçün
Oyandın və mən bitdim.

Müşfiqin sonuncu istintaqı 27 noyabr 1937-ci ildə olur. SSR Ali Məhkəməsi hərbi kollegiyasının səyyar sessiyası 5 yanvar 1938-ci ildə onun haqqında güllələnmə qərarı çıxarır. Hökm yanvarın 6-da Nargin adasında yerinə yetirilir.

Budur, Müşfiqsiz 87-ci 6 yanvar. O, yenə də gözəl xatırlanır. Həmişə də gözəl xatırlanacaq...

***Mətanət Məmmədova***

# 2025-ci ildə hansı saç kəsimləri dəbdə olacaq?



Məlumdur ki, hər yeni il dəyişikliyə dəvət edir. Bu da adətən görünüşlə bağlıdır. Beləliklə, yenilənmiş və canlanmış yeni ilə başlamağınıza kömək etmək üçün 2025-ci ilin saç düzümü tendensiyalarını nəzərdən keçirdik.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

2025 qadın saç düzümü modelləri dəbli və cəsur üslubları ilə qadınların diqqətini çəkir. Həm qısa, həm də uzun saç düzümləri yenilikçi və müasir toxunuşlarla bu ilin trendlərini müəyyən edəcək. Pixie, bob, lob və ”wolf” kimi məşhur saç düzümləri 2025-ci ildə ən çox seçilən modellər arasında olacaq. Hər qadının üz formasına və tərzinə uyğun olan bu kəsimlər 2025-ci ilin qadın saç kəsim modelləri arasında önə çıxır.

**Uzun qatlar**

Sabrina Carpenterdən ilham alan bu saç düzümü, saçın uzunluğundan asılı olaraq qaşların altından başlayaraq, belə çatan müxtəlif uzunluqdakı təbəqələrdən ibarətdir. Bu çox hərəkətli bir saç düzümüdür. Bu saç düzümü modeli mütləq qalın və uzun saçlarda möcüzələr yaradır.

**Transparan keçidlər**

Hər ”çolka” çox sıx olmamalıdır. Bunun nümunələrini 2025-ci ildə görəcəyik.

**Çənə boyu bob**

Lily Collins uzun saçlarını çənə boyu kəsdirərək və son dərəcə müasir bir görünüş əldə edib. O, bununla radikal bir qərar verib. Əslində, o, bu hərəkəti ilə bir trendin başlanğıcını qoydu. Bir sözlə, bu il saçınızı kəsdirməyi düşünürsünüzsə, çənə uzunluğunda bob kəsimi nəzərdən keçirə bilərsiniz.

**Bob saç düzümü: Klassik və Qəşəng**

2025-ci ilin qadın saç düzümü modelləri arasında populyarlığını qoruyan bob kəsimi həm qısa, həm də uzun variantları ilə qadınlar arasında tez-tez seçiləcək.

**Bob saç düzümü nədir?**

Bob kəsimi, saçın çənə səviyyəsində və ya çiyinlərə qədər uzandığı klassik bir modeldir. Üz cizgilərini ön plana çıxaran və zərif görünüş təqdim edən bu model 2025-ci ildə yenidən məşhurlaşacaq.

**Bob saç kəsimini necə düzəltmək olar?**

Bob kəsimi saç düz çənə və ya çiyin səviyyəsində kəsilməklə həyata keçirilir. Saçların uclarına bir az incəlmə tətbiq edilərək saçlara təbii bir hərəkət əlavə edilir.

**Bob saç düzümü kimə uyğundur?**

Bob kəsimi yuvarlaq və oval üz formalı qadınlar üçün idealdır. Bu model üz cizgilərini vurğulayaraq daha incə və uzun görünüş təmin edir.

**Bob Saç Kəsimi Modelləri:**

Qısa Bob Saç Kəsimi: Çənə səviyyəsində düz kəsilmiş şık və müasir bir modeldir.

Uzun Bob Saç Kəsimi (Lob): Çiyin səviyyəsində kəsilmiş daha uzun bob modeli 2025-ci ilin ən dəbli saç düzümlərindən biri olacaq.

**Mullet**

Mullet saç düzümü üst və yanlarda daha qısa saçlar və arxada daha uzun saçlarla xarakterizə olunur. Bu əsəbi və cəsarətli üsluba çox vaxt təbəqələr və toxuma daxildir. Həm müasir, həm də üsyankar bir mövqeyə malikdir. Yadda saxlamalısınız ki, müxtəlif saç tiplərinə uyğunlaşarkən kəskin və fərqli bir görünüş yaradacaq.

**Pixie saç düzümü: qalın və qısa**

2025-ci ilin qadın saç düzümü modelləri arasında yer alan Pixie saç düzümü qısa və müasir görünüş təqdim edir. Bu model üz cizgilərini vurğulayan və gənc görünüş təmin edən ən məşhur saç düzümlərindən biri kimi seçilir.

**Pixie saç düzümü nədir?**

Pixie boyun nahiyəsini qısa, yuxarı hissələrini daha uzun qoyan qısa saç kəsimi modelidir. Bu model xüsusilə oval və ürək formalı üz cizgiləri olan qadınlar üçün əla seçimdir.

**Pixie saçını necə əldə etmək olar?**

Pixie saç düzümündə saçın arxa hissəsi kifayət qədər qısa saxlanılır, ön və üst hissələr isə həcm əlavə etmək üçün daha uzun qalır. Bu kəsim qısa saçları sevən qadınlar üçün mükəmməl seçimdir.

**Pixie saç düzümü kimə uyğundur?**



2025-ci ilin qadın saç düzümü modelləri arasında ən cəsarətli seçimlərdən biri olan Pixie saç düzümü, xüsusilə də yuvarlaq və oval üz cizgiləri olan xanımlara yaraşır.

**Pixie Saç Kəsmə Modelləri:**

Qısa Pixie Saç Kəsimi: Boynun olduqca qısa saxlandığı və üst hissəsinin daha həcmli qaldığı bir model.

Uzun Pixie Saç Kəsimi: Saçın üst hissəsini uzun buraxaraq daha dolğun görünüş təqdim edən modeldir.

**Lob saç düzümü: zəriflik**

2025-ci ilin qadın saç düzümü modelləri arasında yer alan Lob saç düzümü həm qısa, həm də uzun saçları sevən qadınlar üçün mükəmməl bir seçim təqdim edir. Lob kəsimi çiyin səviyyəsində qalıb, təbii və qəşəng bir görünüş təmin edir.



**Lob saç düzümü nədir?**

Lob kəsimi, saçın çiyin uzunluğunda qaldığı düz bir saç düzümüdür. Həm qısa saç düzümü sevənlər, həm də uzun saçlara üstünlük verən qadınlar üçün ideal kəsimdir.

**Lob saçını necə etmək olar?**

Lob kəsimi çiyin səviyyəsində düz bir kəsiklə əldə edilir. Saçların ucları təbii şəkildə incəlməklə həcm və hərəkət əlavə edilir.

**Lob saç düzümü kimə uyğundur?**

Lob saç düzümü oval və kvadrat üz xüsusiyyətləri olan qadınlar üçün idealdır. Çiyin səviyyəsində qalan saçlar həm gündəlik istifadə, həm də xüsusi günlər üçün dəbli seçim olacaq.

**”Shag” saç düzümü: təbii və qarışıq**

”Shag” saç düzümü, laylı kəsiklərlə həcm əlavə edən qarışıq və təbii bir modeldir. 2025-ci ilin qadın saç düzümü modelləri arasında yer alacaq bu kəsim nazik saçlara həcm əlavə etmək istəyən qadınlar üçün ideal modeldir.

**Bu saç kəsimi necə alınır?**

Bu saç düzümündə saçın hər təbəqəsi həcm əlavə etmək üçün müxtəlif uzunluqlarda kəsilir. Bu dağınıq və köhnəlmiş bir görünüş təqdim edir.

**Bu saç kəsimi kimə yaraşır?**

Shag saç düzümü nazik saçlı qadınlar və daha köhnəlmiş görünüş istəyənlər üçün əla



seçimdir.

**”Wolf Cut” Saç Düzümü: Müasir və Sərin**

”Wolf cut” saç düzümü 2025-ci ildə cəsur və fərqli görünüş təqdim edən modellərdən biri kimi önə çıxır. 2025-ci ilin qadın saç düzümü modelləri arasında yer alan Wolf cut, laylı kəsimləri və üsyankar üslubu ilə diqqət çəkir.

**”Wolf Cut” saç düzümü nədir?**

”Wolf cut”, saçın yuxarı hissəsinin qısa, aşağı hissəsinin uzun qaldığı kəsici bir modeldir. Bu model laylı kəsiklərlə həcm əlavə etməklə hazırlanır.

**”Wolf Cut” saç kəsimi kimə uyğundur?**

”Wolf cut” xüsusilə dəyirmi və oval üz cizgiləri olan qadınlara yaraşır. Müasir və üsyankar görünüş istəyən xanımlar üçün əla seçimdir.

2025-ci il cəsarətli və yaradıcı saç düzümü trendləri ilə diqqəti cəlb edəcək. Xüsusilə qadınlar arasında Kəpənək saç düzümü, 90-ların saç düzümü, U və Fransız saç düzümü kimi modellər ən çox seçilən üslublar arasında olacaq. Onların hər biri fərqli üslub və ab-hava təqdim edərək, qadınlara öz şəxsi üslubunu əks etdirməyə kömək edəcək. İndi bu seqmentlərin təfərrüatlarına nəzər salaq.

**1. Kəpənək kəsimi**

Kəpənək saç düzümü 2025-ci ildə qadınlar arasında ən populyar saç düzümlərindən biri olacaq. Bu saç düzümü xüsusilə laylı və canlı saçlara sahib olmaq istəyən qadınlar üçün idealdır.

**Kəpənək saç düzümü nədir?**

Kəpənək saç düzümü, saçın yuxarı hissəsinin daha qısa, aşağı hissələrinin daha uzun qaldığı laylı saç düzümüdür. Bu kəsim saça hərəkət əlavə edir və daha dolğun görünüş verir.

**Kəpənək saç düzümü kimə yaraşır?**

Bu kəsim, xüsusilə nazik saçlı qadınlar üçün həcm əlavə etmək üçün mükəmməldir. Eyni zamanda oval, ürək və kvadrat üz cizgilərinə malik xanımlar bu modellə daha zərif və qəşəng bir görünüş əldə edə bilərlər.

**Kəpənək saçını necə düzəltmək olar?**

Kəpənək kəsimi saçın üst qatlarını qısa, alt qatlarını isə uzun qoyaraq edilir. Saçların uclarına təbii incəlmə tətbiq edilir, daha yumşaq və canlı görünüş verir. Beləliklə, saçın yuxarı hissələrində həcm artarkən, alt hissələrdə uzun və axıcı bir görünüş əldə edilir.

**2. 90-cı illərin saç düzümü**

90-cı illərin saç düzümü, retro trendlərin yenidən populyarlaşdığı 2025-ci ildə qadınlar arasında tez-tez seçiləcək modellərdən biridir. 90-cı illərin ikonik saç düzümləri, xüsusən də Rachel kəsimi geri qayıdır.

**90-cı illərin saç düzümü nədir?**

90-cı illərin saç düzümlərinə ümumiyyətlə laylı, aktiv və bir qədər dalğalı saç düzümləri daxildir. Xüsusilə ”Rachel Cut” kimi tanınan və Cennifer Anistonun Dostlar serialındakı obrazından ilhamlanan bu model qısa və laylı saçları ilə diqqət çəkir.

**90-cı illərin saç düzümü kimə yaraşır?**

90-cı illərin saç düzümü, xüsusilə nazik və düz saçlı qadınlar üçün həcmli bir görünüş təmin edir. Kvadrat, oval və dairəvi üz formalı xanımlar bu modeli rahatlıqla seçə bilərlər.

**90-cı illərin saç düzümünü necə əldə etmək olar?**

Saçların qat-qat kəsilməsi və həcm əlavə edilməsi bu modelin əsasını təşkil edir. Saçın üst qatlarını qısa, alt hissələrini isə daha uzun qoyaraq canlı görünüş yaranır.

**3. U kəsim**

U kəsimi klassik və zərif saç düzümü kimi tanınır və 2025-ci ildə də populyar olaraq qalacaq. Saçın arxa hissəsinin U şəklində kəsilməsi ilə əldə edilən bu model xüsusilə uzun saçları sevən xanımlar arasında çox populyardır.

**U kəsim nədir?**

U cut, saçın arxa hissəsinin U hərfi şəklində əyri şəkildə kəsildiyi bir saç düzümüdür. Bu model saçlara yumşaq və təbii hərəkət bəxş edir.



**U kəsim kimə yaraşır?**

U kəsimi uzun, düz saçlı qadınlar üçün idealdır. Üz cizgilərini daha yumşaq göstərmək istəyən qadınlar üçün də əla seçimdir. Oval və ürək formalı üz cizgiləri üçün çox uyğun modeldir.

**U kəsimi necə etmək olar?**

Saçın arxa hissəsi U şəklində kəsilərkən, saç uclarına laylı görünüş verilir. Bu kəsim saçları daha dolğun və həcmli edir.

**4. Fransız saç düzümü**

Fransız saç düzümü 2025-ci ildə təbii və zərif görünüşü ilə diqqət çəkəcək modellərdən biri olacaq. Fransız qadınlarının sadəliyini və zərifliyini əks etdirən bu model həm qısa, həm də uzun saçlara uyğundur.

**Fransız saç düzümü nədir?**

Fransız saç düzümü saçın təbii quruluşuna uyğun olaraq yumşaq və simmetrik kəsilməsi ilə əldə edilən zərif saç düzümüdür. Ümumiyyətlə laylı və hərəkətli bir görünüş təqdim edir.

**Fransız saç düzümü kimə uyğundur?**

Bu saç düzümü təbii və əziyyətsiz görünüş istəyən qadınlar üçün idealdır. Üz cizgilərini ön plana çıxarmaq istəyən xanımlar, xüsusən də oval və uzun üz cizgiləri varsa, bu modeli seçə bilərlər.

**Fransız saçını necə kəsmək olar?**

Yüngül təbəqələrlə hamar bir keçid etmək üçün saçın ucları kəsilir. Saçın təbii dalğalarını qorumaqla həcm və zərif görünüş əldə edilir. Bu model gündəlik istifadə üçün də çox praktikdir.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Avropa Komissiyası – korrupsiya yuvası

***Reklam istehsal edilən məhsulun daha çox satılmasında başlıca rol oynayır. Hətta toyuqlar öz yumurtasını reklam etməsə, müxtəlif səslər çıxarıb haray-həşir salmasa onun bu fərasətindən kimsənin xəbəri olmaz. Avropa ölkələri "toyuq siyasəti", yaxud "toyuq reklamı" sayəsində özünü bütün dünyada elə forma və şəkildə təbliğ edib ki, sanki "qoca qitə" təxmin etdiyimiz cənnət imiş. Sanki burada korrupsiya sözünün baş hərfindən xəbərsizmişlər. Amma avrointeqrasiya dərinləşdikcə Avropa İttifaqındakı bütün çirkablar iy verməyə, heç bir ölkədə olmayan cinayətlər üzə çıxmağa başlayıb.***




Belçikanın Lyej məhkəməsi Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyenin COVID-19 peyvəndlərinin satın alınmasında korrupsiya ittihamlarına qarşı qanuni toxunulmazlığının olub-olmaması ilə bağlı dinləmələr keçirəcək. Bu barədə iddiaçı, fəal Frederik Baldan xəbər verib. Onun sözlərinə görə, iclas yanvarın 6-da Avropa İttifaqının (Aİ) prokurorluğunun müraciəti əsasında baş tutacaq, fon der Leyen Aİ-nin təsisatlarında korrupsiya faktlarını araşdırmalı idi, lakin "de-fakto, o, hazırda özünü müdafiə məqsədilə fəaliyyət göstərir"."Avropa prokuroru, von der Leyenin klinik sınaqlardan keçməmiş COVID-19 peyvəndlərinin satın alınmasında korrupsiya ittihamı ilə təqibdən immunitetə malik olduğunu iddia edərək məhkəməyə müraciət edib", Baldan deyib. O qeyd edib ki, AK rəhbəri belə toxunulmazlığa malik ola bilməz, çünki o, "səlahiyyətlərinin hüdudlarından çox kənara çıxıb". Von der Leyen sınaqları o vaxt tamamlanmamış COVID-19-a qarşı peyvənd almaq üçün müqavilə bağlamaqda ittiham olunur. Qərar onun Pfizer rəhbəri ilə SMS yazışmasından sonra Aİ ölkələrinin əvvəlcədən razılığı olmadan qəbul edilib. Nəticədə Aİ büdcəsindən buna 35,8 milyard avro xərclənib. 2024-cü il aprelin 1-də Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyenə qarşı Avropanın aparıcı prokurorları tərəfindən Pfizer-dən koronavirusa qarşı vaksinlərin alınması ilə bağlı cinayət işinin araşdırmasının Avropa İttifaqının əlinə keçdiyi bildirilib. Hüquqi sənədlərə əsasən, hüquq-mühafizə orqanları "dövlət funksiyalarına müdaxilə, SMS-lərin silinməsi, korrupsiya və maraqların toqquşması" sübutlarını yoxlayır.Vəkillər vurğulayıblar ki, bu iddia geniş ictimai rezonansa səbəb olub, Ursula fon der Lyayenə qarşı ittihamlar artıq minə yaxın Aİ vətəndaşı, əsasən də yaxınlarını itirmiş və ya yoxlanılmamış dərmanlarla praktiki olaraq məcburi peyvənddən əziyyət çəkən insanlar tərəfindən dəstəklənir. Ursula fon der Lyayen Aİ ölkələri ilə əvvəlcədən razılaşmamış 2020-ci ilin sonunda Amerikanın "Pfizer" şirkətinin baş direktoru Albert Bourla sınaqları hələ tamamlanmamış peyvəndin alınması üçün müqavilə bağlamaqda ittiham olunur. Bu iddia üzrə ilk dinləmə 17 may 2024-cü ildə baş tutub. Lyej məhkəməsi bu işin onun yurisdiksiyasına aid olduğunu və açıq-aşkar maraqların toqquşması səbəbindən Ursula fon der Lyayenin özünün təşəbbüsü ilə yaradılmış Avropa Prokurorluğuna təhvil verilməməli olduğunu təsdiqləyib. Dekabrın 6-da baş tutmalı olan ikinci dinləmə, Lyayenin toxunulmazlığı üçün məhkəməyə əks-tələb göndərən Aİ prokurorluğunun demarşı səbəbindən faktiki olaraq pozulub. Məhkəmə yanvarın 6-da məhz vəsatətə baxmalıdır.

### AİB-nin keçmiş rəhbəri də korrupsiyada şübhəli bilinir

Aİ prokurorları Avropa İnvestisiya Bankının (AIB) keçmiş rəhbəri Verner Hoyeri korrupsiya və vəsaitlərin mənimsənilməsinə görə araşdırıb. İstintaq maliyyə institutunun işçilərindən birinə təzminat ödənilməsi ilə bağlı olub. Hoyer iddiaları "absurd" və "əsassız" adlandırsa da, korrupsiya, alverçi təsir və Aİ fondlarından sui-istifadə ittihamları ilə istintaqa cəlb edilib.Hoyer bildirib ki, o, vəzifəsini tərk edən AIB əməkdaşına qeyri-qanuni ödənişlə bağlı aparılan araşdırmada Avropa Baş Prokurorluğu (EPPO) ilə tam əməkdaşlıq edəcək. Hoyer açıqlamasında "Mənə qarşı irəli sürülən ittihamlar tamamilə absurd və əsassızdır" deyib. "İstintaqın aparılacağını və faktların aydınlaşdırılacağını gözləyirəm və AİB-dən Avropa prokurorları ilə tam əməkdaşlıq etməyi xahiş edirəm", deyib.Vəkili vasitəsilə göndərilən bəyanatda deyilir ki, istintaq Hoyerin prezidentliyi dövründə imzaladığı, lakin onun danışıqlarda "iştirak etmədiyi" işçi heyətinin müavinətləri ilə bağlı müqaviləyə aiddir. "EPPO-nun cinayət təhqiqatına başlaması üçün qanuni tələblər çox aşağıdır", deyən vəkili Nikolaos Gazeas, imza sahibinin istintaqın hədəfinə çevrilməsinin "qeyri-adi deyil" olduğunu əlavə edib.Qeyd edək ki, Almaniyanın keçmiş xarici işlər nazirinin müavini 2023-cü ilin sonunda iki altı illik müddətə işləyərək AIB-nin rəhbəri postunu tərk edib və onu İspaniyanın İqtisadiyyat naziri Nadia Kalvino əvəzləyib. AIB adı açıqlanmayan iki keçmiş işçinin toxunulmazlığını ləğv edərək, prokurorlara Lüksemburqdakı binalarına və sənədlərinə giriş imkanı verib. EPPO 2021-ci ildə təsərrüfat subsidiyaları fırıldaqçılığı kimi məsələləri araşdırmaq üçün yaradılıb, lakin Avropa Komissiyasının peyvənd istehsalçısı Pfizer ilə imzaladığı müqavilələrlə bağlı iddialarla da maraqlanıb.Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə keçmiş ali nümayəndəsi Cozep Borrell Avropa Parlamentinin keçmiş vitse-spikeri Eva Kayliyə qarşı korrupsiya ittihamlarını ciddi adlandırmışdı. Söhbət dünya çempionatına ev sahibliyi edən Qətərdən külli miqdarda pul və bahalı hədiyyələrin transferi yolu ilə nüfuz qazanmasının




araşdırılmasından gedir. Brüsseldə, Avropa Xarici Əlaqələr Şurasının Brüsseldə keçirilən iclasından əvvəl keçirilən mətbuat brifinqində Cozep Borrelldən yunan qadın Eva Kylie-yə qarşı irəli sürülən ittihamlarla bağlı son məlumatlar soruşularkən belə cavab verib: "Əlbəttə, xəbər çox narahatedicidir. Bu, Avropa Parlamentinin keçmiş sədri kimi məni narahat edir. Polis və ədliyyə orqanları tədbir görür və biz bu xəbərdən narahatıq. Bunlar çox ağır ittihamlardır".Avropa Parlamentinin keçmiş sədr müavini Eva Kiley ona qarşı korrupsiya, cinayətkar qruplaşmada iştirak və çirkli pulların yuyulmasında ittihamları dinləyib və o, həbs edilib. O, keçən həftənin cümə günü dindirilmək üçün saxlanılıb. Belçika mətbuatının yazdığına görə, polis onun evində axtarış zamanı pul kisələri tapıb və bu səbəbdən Avropa Parlamentinin vitse-prezidenti toxunulmazlıqla qorunmur. Onunla birlikdə daha üç nəfər, o cümlədən İtaliyadan olan keçmiş avropalı deputat, eyni zamanda Belçikadan olan deputatın köməkçisi də həbsdə qalıb. Belçikalı deputatın evində axtarış Avropa Parlamenti sədrinin iştirakı ilə aparılsa da o özü həbs olunmayıb.

### Avropa siyasətdə də tənəzzül yaşayır

2024-cü il artan tendensiyanı birləşdirdi: ifrat sağçı diskurs Avropanın siyasi əsas axınının bir hissəsinə çevrilir. Bu günə qədər Aİ-yə üzv olan səkkiz ölkənin hökumətləri ifrat sağçı partiyaların nümayəndələri ilə tamamlanıb. Bir sıra ölkələrdə bu qəbildən olan siyasi qüvvələr hökumətə daxil ola bilməsələr də, son illər seçicilər arasında nüfuzunu nəzərəçarpacaq dərəcədə artırıblar. Builki super seçkilərin bir növ kulminasiya nöqtəsi (dünya əhalisinin yarısı seçki proseslərində iştirak etdiyi üçün belə adlandırılmışdır) Avropa Parlamentinə ümumavropa seçkilərinin nəticələri oldu ki, bu da qanunverici orqanda ifrat sağçı qüvvələrin mövqelərini xeyli gücləndirdi.Son bir neçə onillikdə Avropanın ənənəvi siyasi qüvvələrinin "kordon sanitaire" adlı gözəl adı olan strategiyası üzə çıxıb. Bunun mahiyyəti müxtəlif ideologiyalara malik partiyaların bir məqsəd ətrafında birləşdirib hakimiyyətə gəlməkdir. 2024-cü ildə populist və millətçi partiyalar bütün qitədə gücləndikcə, bəlkə də yalnız Almaniya onları bu şəkildə kənarda saxlamaq lüksünə malik idi. Bu il ifrat sağçı qüvvələr Aİ-nin səkkiz ölkəsində hökumətlərdə və bəzi hallarda onların əsas qüvvəsi kimi özlərini büruzə verməyi bacardılar. Macarıstandan (2010-cu ildən bəri sağçı Fides-in lideri Viktor Orbanın hakimiyyətdə olduğu) və İtaliyadan (2022-ci ilin sonunda ifrat sağçı "İtaliya Qardaşları"nın rəhbəri Giorgia Meloni başçılıq edirdi) sonra həddən artıq sağçı hökumətlərin sayı Xorvatiya, Finlandiya, Hollandiya, Slovakiya və Avstriyanın hesabına artdı.Ən böyük "uğur hekayələri"ndən biri Hollandiyada Geert Wilders-in ifrat sağçı Azadlıq Partiyasının 2023-cü ilin noyabrında keçirilən seçkilərdə parlamentdəki təmsilçiliyini ikiqat artırması olub. Baxmayaraq ki, bu odioz siyasətçi daha az radikal tərəfdaşlara bir sıra güzəştlər edərək, yalnız ötən ilin yayına yaxın hakim koalisiya yarada bilib. Oxşar hadisə ötən il Avstriyada baş verdi. Sentyabrda keçirilən seçkilərdə ifrat sağçı Azadlıq Partiyası həm mühafizəkar Avstriya Xalq Partiyasını, həm də sol mərkəzçi Sosial Demokrat Partiyasını qabaqlayaraq ölkə tarixində ilk dəfə ən böyük səs faizini - 29%-ni qazandı. İfrat sağçılar keçmişdə üç dəfə Avstriya koalisiya hökumətlərinin bir hissəsi olsalar da, indiyədək onlara heç vaxt bir hökumət yaratmaq üçün kart-blanş verilməmişdi. Üstəlik, əgər Avstriya və Hollandiyada bir neçə ildir sistematik olaraq ifrat sağçı əhval-ruhiyyənin artması, əsasən bu ölkələrdə miqrantların çoxluğundan əhalinin narazılığından qaynaqlanır. Xorvatiyada bir neçə həftəlik tərəddüd və şübhədən sonra Xorvatiya Demokratik Birliyini təmsil edən respublikanın baş naziri Andrey Plenkoviç ifrat sağçı "Vətən Uğrunda Hərəkat" partiyası ilə hakim koalisiya qurduğunu elan etdi.Bir sıra digər ölkələrdə ifrat sağçılar indiyədək nazirlər kabinetindən kənarda qalıb, lakin parlamentlərdə təmsilçiliyini nəzərəçarpacaq dərəcədə artırıb. Məsələn, İspaniya Çeqası mart seçkilərində 18% - əvvəlki seçkilərdən 4 dəfə çox, Rumıniyanın ifrat sağçı və ultra-millətçi partiyaları, o cümlədən Rumıniyanın sağçı Rumınların Birliyi Alyansı (AUR) partiyası dekabr seçkilərində 30% səs toplaya bildi. Lakin ifrat sağçı ideyaların populyarlığının deyil, əhalinin əsas axınını (həddindən artıq sağçıların xeyrinə işləyən) siyasətindən güclü məyusluğunun əsas göstəricisi prezident seçkilərinin birinci turunda qələbə idi.Amma təbii ki, 2024-cü ildə diqqəti Qərbi Avropanın iki ən böyük ölkəsinin - Almaniya və Fransanın ifrat sağçı qüvvələri cəlb etdi. Sentyabr ayında Almaniyanın "Alternativ für Deutschland" (AfD) partiyası hazırda federal səviyyədə ikinci yerdə, Şərqi Almaniyanın Türingiya əyalətində səslərin təxminən üçdə birini qazanaraq, Dünya Müharibəsindən sonra ölkənin ilk ifrat sağçı partiyanın əyalət parlamenti seçkilərində qələbəsini qeyd etdi. Və bu qələbəyə Almaniya məhkəmələrinin AfD-nin "potensial ekstremist partiya" olduğuna dair çoxsaylı hökmləri mane ola bilmədi.Marin Le Penin rəhbərlik etdiyi Fransa Milli Mübarizə partiyası da son bir ildə nəzərəçarpacaq dərəcədə gücləndi. İyun ayında keçirilən Avropa Parlamenti seçkilərində onların möhtəşəm performansı hətta Fransada erkən ümumxalq səsverməsinə səbəb oldu. Və onun nəticələrinə görə xanım Le Penin partiyası paradoksal olaraq yalnız üçüncü yeri tutsa da, Beşinci Respublikadakı siyasi çaşqınlığı nəzərə alsaq, Fransa ifrat sağçılarının ikonasının 2027-ci il prezident seçkiləri ilə öz üstünlüyünü bərpa etmək şansları çox yüksək olaraq qalır. .Keçən ildə əksəriyyəti immiqrasiyaya qarşı olan və Ukraynaya gələcək hərbi və maliyyə yardımına qarşı çıxan ifrat sağçı partiyaların tezliklə ümumavropa səviyyəsində kürsü idarə etməyə başlayacağına dair qorxular alovlanıb. Avropa Parlamentinə seçkilər öncəsi sorğular göstərib ki, seçicilər qurulmuş partiyaların miqrasiyadan tutmuş inflyasiyaya, ekoloji islahatların bahasına kimi məsələləri həll edə bilməməsindən getdikcə daha çox narahat olurlar. İyun seçkilərində sağa keçid ənənəvi siyasi qüvvələr üçün proqnozlaşdırıldığı qədər sarsıdıcı olmasa da, iki ifrat sağçı alyans yenə də AP-də üçüncü və dördüncü ən böyük fraksiya oldu.Bunun fonunda sağ mərkəzin bəzi siyasətçiləri ifrat sağ spektrin ən az radikal qüvvələri ilə əməkdaşlıq imkanlarını əvvəlcədən etiraf etməyə başlayıblar. Beləliklə, AK rəhbəri Ursula fon der Leyen hələ fevral ayında gələcəkdə "Avropa Mühafizəkarları və İslahatçılar" qrupu ilə əməkdaşlığı istisna etmədiyinə işarə etmişdi. Giorgi Meloni partiyası gedişatı müəyyən edir. Lakin sonradan sol cinahdakı digər müttəfiqlərin təzyiqi altında xanım fon der Leyen geri çəkildi. Lakin ultra sağ spektrin qüvvələri ilə əvvəllər ağlasığmaz potensial iş əlaqələrinin icazəli olması faktı fakt olaraq qalır.Bu il xüsusilə aydın şəkildə ortaya çıxan ikinci tendensiya, mərkəzçi partiyalar tərəfindən xüsusilə miqrasiya siyasəti ilə bağlı sağ ideyaların məqbul kimi qəbul edilməsi idi. Almaniyanın özü burada çox bariz nümunə oldu. Hətta solçular, o cümlədən Olaf Şolz sosial demokratları 2024-cü ildə miqrasiya və sığınacaq siyasətini sərtləşdirməyə qərar verdilər. Tədbirlərin sərt olmaması ilə bağlı tənqidlərin əksəriyyəti isə Angela Merkelin rəhbərlik etdiyi mühafizəkarlardan gəldi, yəni tam əks şeylər, açıq qapı siyasəti və multikulturalizm.

**V.VƏLİYEV**

# SALAMLAŞMA: unudulmağa qoymayaq!





I YAZI

***Gözəl adətlər qorunub yaşadılmalıdır, unudulmalı deyil. Elə əsrlər boyu belə də olmuşdur. Biz azərbaycanlılar böyük bir xalq olaraq adət-ənənələrimizi elə qorumuşuq ki, onların hər biri dünəndən bu günə gəlib çıxa bilib. Bu qədər mühafizəkarlıq qarşısında bəzi adətlərimiz nə üçün unudulur, yoxa çıxır, bax, bu məsələ olduqca maraqlıdır.***







Bu gün həmin unudulmuş adətlərdən biri-salamlaşma haqqında danışmaq istəyirəm. O salamlaşma ki, artıq illərdir, yavaş-yavaş azaldığı, salamın verilmədiyi, bəzən isə verildiyi təqdirdə alınmadığı müşahidə olunur.

Bizlərdən çoxu salam vermir, salam almır, salamlaşmadan ömrümüzü yaşayırıq. Görəsən bu, nə üçün belə oldu?

## Salam Allahın adlarından biridir

Böyüklərimiz həmişə deyərdi ki, nə qədər çox salam verirsənsə, Allahın adını bir o qədər anmış olursan. Odur ki, əvvəlki illərdə insanlar salamlaşmanı vacib hesab edir və böyük saygı kimi dəyərləndirirdi. Xüsusilə də rayon yerlərində qarşılaşan insanların hər biri salamlaşmadan keçməzdi. Bu gün böyük şəhərlərdə yaşayan insanların əksəriyyəti həmin rayonlardan bu şəhərlərə gəldiyindən onlar salamlaşmanın nə demək olduğunu da yaxşı bilirlər.

Məsələn, onu yaxşı bilirlər ki, yaşadığımız ərazidə yaxın-uzaq qonşuların hər biri ilə salamlaşardıq. Ağsaqqal, ağbirçəklər salamımızı alarkən hələ bir bizi əzizləyərdilər də. Salamın qarşılığında "salam verənin çox olsun, ay qızım", "salam verənin çox olsun, ay oğlum", "ay aleykumsalam", yaşlı qadınlar qızlara "salam, gözəlim", yaşlı kişilər oğlanlara "salam, igid" sözləri eşidilərdi. Bütün bunlar isə uşaq və gəncləri sevindirər, onlar bu sözlərdən qürrələnər, hər dəfə həmin sözləri eşitmək üçün salam verməyə can atardılar.

Salam vermək, Allahın adını tez-tez anmaq kimi öyrədilirdi uşaq və yeniyetmələrə. Eyni zamanda, hörmət və sayğının təməli olaraq aşılanırdı. Odur ki, hər kəsin oxuduğu məktəbdə, çalışdığı iş yerində, kollektivdə, mağazada, harasa daxil olduqda salam verməməsi mümkün deyildi. Hələ belə də olurdu ki, salam verirdik, ya adamın başı qarışıq olurdu və yaxud da utanıb salamı astadan verəndə qarşıdakı adam eşitməyib cavab verməyəndə sıxılırdıq, öz-özümüzə deyinirdik ki, niyə salamımızı almadı. Bəzən qarşıdakı adam verdiyimiz salamı eşitməyəndə, bizə "ay bala, salamın-sabahın harada qaldı?" deyəndə isə and içməyə başlayırdıq ki, ay xala, ay əmi, vallah, verdim ey, eşitmədiniz.

Beləliklə də beynimizə həkk olunmuşdu ki, hara getsək, ən birinci salam verməliyik: tanıdığımız qonşularla salamlaşmalıyıq. Məktəbdə və yaxud harada oluruqsa olaq, orada salamsız hər hansı fəaliyyətə başlamaq olmaq. Bu gözəl və qürurduyulası adətlərimizdən biri olaraq uzun illərdir ki, yaşadılıb bu günlərədək gətirilib.

## Salam verdim, rüşvət deyildir deyə, almadılar

Lakin çox təəssüf ki, müasir dövrdə salamlaşmaq mədəniyyəti də digər əhəmiyyətli məsələlər kimi müasir insanlar tərəfindən artıq tarixin arxivinə göndərilməkdədir. Böyük Məhəmməd Füzuli, "salam verdim, rüşvət deyildir deyə, almadılar" kəlamını sanki bu gün üçün qələmə alıbmış. İnsanlar sanki salamın maddi deyil, hava olduğunu düşünərək onu boş bir şey hesab edir və verilən salamın alınmasını məsləhət bilmirlər. Bunu qonşuluqda da, iş yerində də, ümumiyyətlə, salam verməli olduğumuz hər yerdə müşahidə edirik.

Böyük şəhərlərdə insanlar bir-birini tanımadığından, əlbəttə, küçədə hər kəsə salam vermək olmur. Lakin qonşuluqda, iş yerində, kollektivdə, hər hansı təşkilata daxil olduqda bir-biri ilə qarşılaşan hər kəs təbii ki, salamlaşmalıdır. Lakin gəlin, görək, liftə daxil olur, salam verirsən, burada kiminsə səsi çıxırmı? Adam, vallah, utanır ki, salam verdim, bunlar yəqin məni anormal hesab edib salamımı almadılar. Və yaxud da iş yerində elə adamlar var ki, salam verirsən, səsi çıxmır. Sanki buna borcun varmış, salam verdin, həmin borc yadına düşdü, acıqlandı ki, salamını özünə saxla, borcunu qaytar.

Hansı ki, bu insanlar bir-birinə yad deyillər. Hər gün olmasa da, günaşırı qarşılaşırlar. Belə olan təqdirdə salamlaşmamaq necə mümkün ola bilər ki? Təbii ki, mümkün deyil. Salam bizim qədim adətlərimizdən biridir. Xalqımızın bir-birinə qarşı sayğısının, mədəniyyətimizin, etik qaydalara riayət etməyimizin göstəricisidir.

Bir də "üz-üzdən utanar" deyilən el misalı var. Tanıdığın demirəm, o, mütləqdir, yeni tanış olduğun və ya aradabir qarşılaşdığın adamın yanından necə salamsız keçmək olar? Axı insan özündə həmin an utanma hiss edir. Lakin görünür ki, bu, heç də hər kəsə aid deyil. Elə buna görə də utanmadan, sıxılmadan adamın yanından elə salamsız keçirlər ki, deyirsən bəlkə bu adam səni ömründə heç bircə dəfə də görməyib.

## Bir salam bir münasibətdir

Düşünəndə, əlbəttə, salam yeni tanışlıqlara, münasibətlərin formalaşmasına şərait yaradır. Məsələn, illər öncə yaxın ərazilərdə yaşayan insanlar bir-biri ilə salamlaşırdı. Deməli, tanışlıqlar meydana çıxırdı. Münasibətlər yaranırdı. Sabahı gün məhəllə uşaqları bir-biri ilə dalaşanda, valideynlər o salamın xətrinə ağı-qaradan götürmürdü. Aradakı salam-sabahdan çəkinir, utanırdı. Və yaxud da kəndin başında bir xəstə olanda kəndin aşağı hissəsindəki adamlar yığışıb onu ziyarətə gedirdilər. Deyirdilər ki, aramızda salam-sabah var, hökmən getməliyik, sabah yenə üz-üzə gələcəyik.

Bunu görən uşaq-yeniyetmələr də bu ruhda böyüyürdü. Onlar da valideynlərinin bu münasibətlərini davam etdirirdi. Kiminsə sözü bir-biri ilə düz gəlməyəndə onu aradakı salama bağışlayır, salama görə söhbəti, necə deyərlər, dağa qaldırmırdı, arana endirirdi. Hələ iki nəfər qonşu dalaşanda belə bir ifadə də eşidərdik: səni qurban edirəm aramızdakı haqqı-salama. Və yaxud da "qurban olasan dədənlə aramızdakı salam-sabaha", "səni keçirəm aramızdakı salama". Məktəbdə də, iş yerimizdə, bir sözlə, hər yerdə kim ki, salamlı-sabahlı olardı, ona qoyulan hörmət başqalarından fərqli idi.

## Unudulmağa qoymayaq: bir-birimizə salam verək

Beləliklə, milli-mənəvi dəyərlər toplumuzdan hər gün bir dəyər silinib gedir. Biz artıq özümüzdən başqa hər kəsə oxşamağa başlamışıq. Həyatımız, dəyərlərimiz, davranışığımız hər gün bir qədər "müasirləşir". Bu "müasirlik", bax, belə insani keyfiyyətlərimizə də təsirsiz ötmür. Salam verəndə, qarşındakı insanın "salam" deyə cavab verməsi nə qədər əziyyətlidir, nə qədər dil-ağıza yük düşür, bax, bunu hesablamaq bir qədər çətin gəlir insana. Odur ki, insanların bu davranışından sadəcə "salam vermə, almayacağam" qənaətinə gəlmək olur.

Və yaxud, bir dəfə ağzını açıb cəmi beş hərfdən ibarət salam vermək nə qədər əziyyətlidir ki? Vallah, heç bir əziyyət yoxdur. Odur ki, şəxsən mən həmişə salam verəcəyəm. Çünki bu, həm mədəniyyət, həm etiket qaydası, həm də Allahın adını anmaqdır.

Bir də, istərdim biləm ki, mənim salamımı almırlar, yoxsa, hamıda belədir? Lakin mən bu qənaətdəyəm ki, min dəfə də bu fikrə düşən olsa ki, "yox, vermə, almayacam", yenə də salam verək, sabahınız, axşamınız, hərvaxtınız xeyir, deyək. Bəlkə bir gün bu sözlərin qarşılığını eşitmiş olarıq. Odur ki, salam, əziz oxucular və hər kəs, hərvaxtınız xeyir olsun. Gəlin, salamlaşaq. Əsrlərdən bəri qoruyub bu günədək gətirdiyimiz dəyərli adətlərimizdən olan salamlaşmanı unudulmağa qoymayaq!

***Mətanət Məmmədova***

# Ermənistan: Yeni ilə yeni borclarla

## Təkcə faiz ödənişi 2025-ci ildə 1 milyard dollar təşkil edəcək



***Ermənistanın İkinci Qarabağ savaşındakı məğlubiyyətindən xeyli vaxt keçməsinə baxmayaraq bu ölkə hələ də özünə gəlmək iqtidarında deyil və sosial-iqtisadi, hərbi-siyasi böhran içərisində çabalayır. Nəticədə Ermənistan vətəndaşlarının arasında hökumətə qarşı ciddi inamsızlıq hökm sürür. Xüsusilə ölkənin xarici dövlət borcları hər il artmaqda davam edir.***

Artıq Ermənistanın dövlət borcu illik dövlət büdcəsindən xeyli çoxdur. İstər borcun, istərsə də qiymətlərin xeyli artması nəticəsində borclara xidmət çətinləşib. Ermənistan hakimiyyətinin "səyləri" ucbatından ölkə dəhşətli maliyyə yükü altına düşüb. Məlumata görə, hər il Ermənistanın dövlət büdcəsindən borclara xidmət üçün yüz milyardlarla dram ayrılır. "2025-ci ildə dövlət borcunun ödənilməsi və borclara xidmət üçün 1117,1 milyard dram tələb olunacaq ki, bunun da 723,0 milyard dramı borc ödənişləri, 394,1 milyard dramı isə faiz ödənişləri olacaq", - deyə bu yaxınlarda Ermənistan hökuməti gələn ilin dövlət büdcəsi layihəsində qeyd edib. Bunlar Ermənistan üçün fəlakətli dərəcədə böyük pullardır.



Son 6 ildə Ermənistan hökumətinin borcu təxminən iki dəfə artıb. Borc üzrə faiz dərəcəsi əvvəlki 4-4,5 faizdən 7,3 faiz təşkil edib. İlin sonuna kimi 7,6 faizə çatacağı gözlənilir. Gələn il təkcə Ermənistan hökumətinin borcunun faizlərini ödəmək üçün 394 milyard dram lazımdır ki, bu da bu illə müqayisədə 49 milyard çoxdur. Bugünkü məzənnə ilə bu, 1 milyard dollardan çox olacaq. Nümunə üçün deyək ki, Ermənistanın 2018-ci ilin dövlət büdcəsində borclara xidmət üçün cəmi 140 milyard dram ayrılıb. Gələn il isə 394 milyard dram ayrılacaq. Paşinyanın hakimiyyətinin 6 ilində təkcə borcun faizlərinin ödənilməsi 2,8 dəfə artaraq, 140 milyard dramdan 394 milyard drama çatıb. Məlumatlara görə, gələn il xarici borc faizlərini ödəmək üçün 108 milyard dramdan çox pul tələb olunacaq. Halbuki 2018-ci ilin büdcəsində xarici borcun ödənilməsi üçün nəzərdə tutulan məbləğ cəmi 47 milyard dram olub ki, bu da indikindən azı iki dəfə azdır. Amma borc xidməti yalnız faizlə məhdudlaşmır. Borcları ödəmək üçün daha böyük məbləğlər lazımdır.

Ermənistanın 2025-ci il dövlət büdcəsi layihəsinə əsasən, gələn il borcun ödənilməsi üçün 723 milyard dram tələb olunacaq: 408,5 milyard dram dövlət xəzinə istiqrazları, 132,3 milyard dram xarici valyutada dövlət istiqrazları, 182,1 milyard dram isə xarici kreditlərin ödənilməsi üçün nəzərdə tutulub. Bu məbləğlər çox vaxt yeni borclar cəlb etmək vasitəsilə ödənilir. Ermənistan hökuməti xarici valyuta istiqrazlarının borcunu belə bağlamaq niyyətindədir. Ermənistan



hakimiyyətinin təmsilçiləri əvvəlki buraxılışın borcunu ödəmək üçün yeni avrobondlar buraxmağa hazırlaşırlar. Bu azmış kimi yeni buraxılışla əvvəlki buraxılışın borcunu ödəmək istəyirlər. Həm də daha çox borc götürməyə, əvvəlki buraxılışın qaytarılması üçün lazım olandan çox pul cəlb etməyə hazırlaşırlar. "Dövlət büdcəsi haqqında qanunla 2025-ci ildə qaytarılan, nominal dəyəri 313,2 milyon ABŞ dolları olan avrobondların yenidən maliyyələşdirilməsi məqsədilə 500 milyon ABŞ dolları həcmində yeni avrobondların yerləşdirilməsini həyata keçirmək nəzərdə tutulub. Lakin beynəlxalq maliyyə strukturlarından daha sərfəli şərtlərlə kreditlərin cəlb edilməsi imkanının mövcudluğu və ya daxili bazarda əlverişli şərtlərin mövcudluğu hallarında bu mənbələrdən hər biri və ya bunların birləşdirilməsi vasitəsilə 2025-ci ildə qaytarılan avrobondları yenidən maliyyələşdirməyin məqsədəuyğunluğu hökumət tərəfindən nəzərdən keçiriləcək", - deyə Ermənistanın 2025-ci il dövlət büdcəsi layihəsində bildirilir.

Ermənistan hökumətinin proqnozlarına görə, cari ilin sonuna qədər borc 12 milyard 644 milyon dollar təşkil edəcək. 1,3 milyard dollardan çox artacaq. Gələn ilin sonuna qədər bu, 13 milyard 972 milyon dollara çatacaq. Yenidən 1,3 milyard dollar artacaq, icazə verilən həddi keçərək, ÜDM-in 53,3 faizinə yaxınlaşacaq. Ermənistan hökumətinin büdcə layihəsinə əsaslanan proqnozlarına əsasən, borcun orta çəkili faiz dərəcəsi 7,5 faiz təşkil edəcək. Onu da qeyd edək ki, xarici borcun 91 faizi Ermənistan hökumətinin, 9 faizi isə Mərkəzi Bankın borcudur. Xarici və hökumət kreditlərinin ən böyük hissəsi Dünya Bankının payına düşür. Ermənistanın ikinci ən böyük kreditoru 18,8 faizlə Asiya İnkişaf Bankıdır.

Beləliklə, Ermənistanın dövlət büdcəsi və xarici borclarının real mənzərəsi bir daha sübut edir ki, baş nazir ölkəni uçuruma sürükləyir. Artıq yerli iqtisadçılar və hakimiyyətyönlü müəyyən siyasi dairələr də məsələ ilə bağlı həyəcan təbili çalır. Vaxt daralır, amma problem getdikcə artır. Məsələnin həlli üçün isə "Mülki müqavilə"nin təklif etdiyi yeganə variant daha da çox borclanmaqdır. Büdcənin talanması, yerli icra hakimiyyəti orqanları və müəyyən iri ranqlı məmurlar tərəfindən həzm-rabedən keçirilməsi, xalqın günü-gündən yoxsullaşması fonunda Paşinyanın ağızdolusu sosial islahatlardan, proqramlardan danışması, pensiyaları iki dəfə artıracağı barədə vədləri artıq gülünc görünür.

**Sevinc Azadi**

# DİQQƏT: Avtomobillərə verilən etibarnamələr ləğv olunur?

Məlumdur ki, avtomobil idarə etmək üçün verilən etibarnamələrin ləğv olunması müzakirə edilir. Bəs, bu halda ailə fərdlərinə etibarnamə verməyə ehtiyac qalmayacaq? SİA mövzu ilə bağlı nəqliyyat ekspertlərinin fikirlərini öyrənib.





**Nəqliyyat eksperti Elməddin Muradlı:** "Etibarnamə ilə bağlı hələlik hər hansı bir yenilik gözlənilmir. Amma biz də arzulayırıq ki, bu etibarnamə mövzusu artıq qapansın. Niyə? Çünki bununla bağlı çox ciddi narahatlıq və narazılıq var. Artıq Daxili İşlər Nazirliyi "e-polis" xidmətini istifadəyə verib. Kim hansı avtomobili idarə edirsə orada qeydiyyatdan keçə bilir, seçim edə bilir və polis də həmin vaxt başa düşür ki, bu maşın hansı saatda kimdə olub. Yəni bu cür vasitələrdən istifadə edilirsə, demək ki onların aşkara çıxarılması da tam olaraq mümkündür. Yəni avtomobili kim sürüb, cərimə kimə getməlidir, bunlar aydınlaşdırıla bilər. O ayrı məsələdir ki, etibarnamə bir biznes məsələsidir, notariusların qazanc yeridir, gəlir mənbəyidir. Amma insanlar bundan əziyyət çəkirlər. Etibarnamə artıq etibarsız bir sənəd olub. İnsanlar da bundan ruhlanırlar, geniş istifadə edirlər və sonra onların əziyyəti yerdə qalır. O baxımdan mənim fikrimcə etibarnamə məsələsi tam olaraq aradan qalxmalıdır.

O ki qaldı ailə üzvləri arasında necə ola bilər? Ümumiyyətlə, ailə üzvlərinin də, digərlərinin də heç bir etibarnamə istifadə etmədən nəqliyyatı vasitələrini idarə etmək imkanı yaradılmalıdır. Dediyim kim, artıq elektron imkanlar genişdir və bir dəqiqə içində insanlar bəyan edə bilir ki, hal-hazırda mən filan maşını idarə edirəm. Yəni, bunu etməsi qarşı tərəfin istəyi ilə olacaq. Təbii ki avtomobil kimin adınadırsa onun istəyilə olmalıdır. O şəxs tələb edir ki, sən qeydiyyatdan keç və o müddət ərzində törətdiyin xətalarla bağlı cərimələr sənə gəlsin. Yəni mənim üçün bir başağrısı olmasın.

### EKSPERTLƏR DANIŞDI




O da qeydiyyatdan keçir, hər iki tərəf bunu elektron qaydada təsdiqləyir və artıq avtomobili idarə etmək imkanı yaranır. Bu anlamda mənim fikrimcə bu məsələ öz həllini tapmalıdır, yaranan belə problemlərin fonunda hətta düşünürəm ki, gecikmişik".

**Nəqliyyat eksperti Aslan Əsədov:** "Bu məsələ zaman-zaman gündəmə gəlir, amma sonra gündəmdən düşür. Yəni əsas məqsəd burada nəqliyyat vasitələrinin birgə istismarına dairdir. Biz bu yöndə 3 məsələyə baxmalıyıq. Birinci məsələ ailə münasibətləridir, ikinci məsələ nəqliyyat vasitələrinin idarə edilməsi, ( yəni, birinci dərəcəli qohumlar, ikinci dərəcəli qohumlar) 3-cü məsələ isə bunu vergi daxili və ya vergi məsələlərinə də aid etmək olar.

Mən deyərdim ki, ailə məcəlləsinə görə ərlə arvadın birgə nigah dövründə əldə edilmiş əmlak ümumi əmlak sayılır və bu əmlakın istismarı birlikdə nigah şəhadətnaməsi ilə, yəni zaksın kağızı ilə bunu hər iki şəxs istifadə edə bilər. Amma nəqliyyat vasitələrini idarə edən zaman yol hərəkəti qaydaları haqqında təlimat bunu özündə ehtiva etmir. Yəni hər bir şəxsin şəxsən nəqliyyat vasitəsini etibar etmək üçün xüsusi bir icazəsi, şəhadətnaməsi olmalıdır ki, o nəqliyyat vasitəsini idarə edə bilsin. Əks halda nəqliyyat vasitəsi yəni tətbiq olunur və duracağa yerləşdirilir.

Üçüncü bir məsələ isə əmlakın vergi uçotunda olub olmamasıdır. Yəni nəqliyyat vasitəsindən istifadə edilən zaman vergi verirmi? Yəni o istismar edilən zaman onun müəyyən gəlirləri və digər fəaliyyətləri varmı? Bu üçüncü məsələdir. Ona görə də bu məsələ qarışıqdır və mən düşünürəm ki, bunun tez bir zamanda həll olunması real görünmür. Çünki vergi tənzimlənməsi olmalıdır, ailədaxili icazələrin, yəni birinci dərəcəli qohumluq şəhadətnamələrin əldə olunması vı s. bunlar hamısı vaxt aparan məsələdir. Bunun ən qısa zamanda həll olunacağına mən ümidlə yanaşmıram. Ümid edək ki belə bir məsələlər tez həllini tapar".

**Ayşən Vəli**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qida təhlükəsizliyi nədir və ondan xəbərdarıqmı?

***Sağlamlıq hamının həyatının mərkəzində dayanan təməl ehtiyacdır. Sağlamlığımıza verdiyimiz və vermədiyimiz əhəmiyyətə görə həyat keyfiyyətimiz artır və ya azalır. Ancaq bir çox vəziyyət kimi, sağlamlıq da əslində fərqli düşüncə və həyat tərzinə görə dəyişir. Sağlam yaşamaq istəyən insan ilk növbədə, sağlamlığı üçün nəyin faydalı, nəyin zərərli olduğunu bilir və əməl edir. Çünki sağlam həyat onu əldə etmək üçün göstərilən səyin nəticəsində yaranır. Bu səyi həyata keçirmək üçün maarifləndirmə və maariflənmə vacibdir.***



Etibarlı, təhlükəsiz qida dedikdə sağlamlığa heç bir zərəri olmayan, dəyərini itirməyən qidalar nəzərdə tutulur. Təhlükəsiz qida saxlama müddəti ərzində heç bir fiziki, kimyəvi və ya bioloji risk daşımır. Təhlükəsiz qidanın mənbəyi, təmin edilməsi istehlakçı olaraq hər birimiz üçün vacib məsələ olmalıdır. Lakin açıq şəkildə satılan, etiketsiz və lisenziyasız məhsullara rast gəliriksə, deməli, o məhsulların da alıcısı var, dolayısı ilə bu, o deməkdir ki, istehlakçılar arasında qida təhlükəsizliyi ilə bağlı maarifləndirmə hələ də qənaətbəxş səviyyədə deyil.

Qidalar bir neçə baxımdan təhlükə daşıya bilər – fiziki, kimyəvi, mikrobioloji. Fiziki təhlükə daşıyan qidalar tərkibində yad maddələrin aşkarlanması halında təhlükəli olur, bu maddələr daş, torpaq, metel, plastik, taxta, tük kimi predmetlərdir. Kimyəvi risklər qidanın yetişdirilmə və satışa hazırlanma prosesində məruz qaldığı dərman qalıqları, yuyucu vasitə qalıqları, ətraf mühit mənbələrindən ötürülə bilən ağır metallar və ya qida emalı mərhələlərində əmələ gələn bəzi zərərli birləşmələr, qablaşdırma materiallarından keçən kimyəvi çirklənmə və düzgün istifadə olunmayan qida əlavələridir. Kimyəvi maddələr qidalara səmərəliliyin, məhsuldarlığın artırılması məqsədi ilə tətbiq edilir. Mikrobioloji risklər də var ki, bunlara qidalarda yaranan bakteriya, kif, virus, parazit kimi mikroorqanizmlərin və onların yumurtaları aiddir. İstənilən qida məhsulu sağlamlığa zərər verəcək bu üç əsas riskdən azad olmalıdır ki, istehlaka uyğun olsun və təhlükəsiz qida hesab edilsin.







Ümumiyyətlə, qida təhlükəsizliyini tarladan süfrəyədək uzanan zəncir kimi ifadə etmək olar. Zəncirin birinci halqasında xammalı təmin edən ilkin istehsalçı, yəni kənd təsərrüfatı və ya heyvan istehsalçıları var. Birinci mərhələdən məhsullar ikinci mərhələyə - yeyinti sənayesinə gəlir, burada məhsul emal olunur, qablaşdırılır və istehlaka hazır vəziyyətə gətirilir. Sənayeçidən distribütora, distribütordan satıcıya qədər ötürülür, nəhayət axırıncı halqaya, yəni bizə- istehlakçıya gəlib çatır. Əgər bu halqaların hansındasa qırılma, yəni istehsalda, daşınmada pozulan qaydalar olsa qida təhlükəsizliyinin təməli qoyulur.

Qida təhlükəsizliyi bəsit kimi görünən, amma əslində, çox təhlükəli vəziyyətlərə səbəb olan vacib amildir. Qidalar yoluxucu xəstəliklər daşıya, ötürə bilir, xüsusilə immun sistemi zəif olan uşaq, yaşlı və hamilə qadınlar üçün bu xəstəliklər təhlükəlidir. Qida ilə əlaqəli klinik məlumatlar da çox narahatedicidir, məsələn, dünyada hər il əksəriyyəti uşaq olmaqla təxminən 2,2 milyon insan qidadan ötürülən yoluxucu xəstəliklər səbəbindən ölür. Digər tərəfdən, inkişaf etmiş ölkələrdə əhalinin təxminən 30%-nin hər il qidadan qaynaqlanan xəstəliklərə yoluxduğu bildirilir. İnkişaf etməkdə olan və inkişaf etməmiş ölkələrdə bu vəziyyətin daha ciddi olduğunu təxmin etmək çətin deyil. ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin (CDC) məlumatına görə, Birləşmiş Ştatlarda hər il təxminən 76 milyon qidadan xəstəliyə yoluxma halı baş verir. Təxminən 325 min nəfərin xəstəxanalarda müalicə olunduğu, 5 min nəfərin isə bu yoluxmalarda öldüyü bildirilir.

Bu cür halların baş verməməsi üçün istehlakçı, ilk növbədə, sağlam qidalanma şüurunu formalaşdırmalıdır, mümkün qədər təbii və ya qatqısız təzə qidalar istehlak edilməlidir. Etibarlı satış yerlərinə üstünlük verilməlidir, açıq satılan, etiketsiz və ya lisenziyasız məhsullardan uzaq olmaq şərtdir. Qablaşdırılmış məhsul olsa belə, tərkibi, qida dəyəri, əlavələri, lisenziya tarixi, istehsal və son istifadə tarixlərinin yazılıb-yazılmadığı yoxlanılmalıdır. Etiketləri zədələnmiş və ya oxunmayan məhsullar alınmamalıdır. Qablaşdırmanın zədələnməməsi və qabarıq olmaması şərtdir. Xüsusilə meyvə və tərəvəzləri təbii mövsümündə istehlak etməli, süni şəraitdə yetişdirilən istixana məhsullarından uzaq durmaq lazımdır.

Qida təhlükəsizliyinin üç əsas prinsipi var: 1. Qidaların sağlamlığa zərərli amillərlə çirklənməsinin qarşısının alınması, 2. Qidalarda sağlamlığa zərərli amillərin çoxalmasının və yayılmasının qarşısının alınması, 3. Qidalardan zərərli amillərin müvafiq üsullarla çıxarılması və ya zərərsizləşdirilməsi. Qida təhlükəsizliyi həm istehsalçıları, həm də istehlakçıları yaxından maraqlandıran və onlara birbaşa təsir edən qlobal problemdir. Çünki bu gün bir çox yoluxucu xəstəliklərin qida təhlükəsizliyinin təmin olunmadığı şəraitdə istehsal olunan məhsullardan qaynaqlandığını görürük. Qida məhsulları insan sağlamlığına mənfi təsir etməyəcək və ekoloji problemlər yaratmayacaq mühitlərdə istehsal edilməli, emal edilməli və satılmalıdır.

Ümumiyyətlə, ərzaq məhsulunda yaranan hər hansı problemlə əlaqədar hüquqi tələbdə haqlı tərəf olmaq üçün alış-veriş zamanı satınalma sənədi - kassa qəbzi alınmalı və müəyyən müddət saxlanılmalıdır. Bu gün dünyada bütün istehlakçıların maariflənməyə ehtiyacı var. Çünki istehlakçıların maariflənməsi o deməkdir ki, istehsalçılar daha sağlam və təhlükəsiz qida istehsal etməyə məcbur olur.

***Lalə Mehralı***

# Kirayə ev axtarırsınız? – EHTİYATLI OLUN!




## *DİN saxta kirayə ev elanları ilə bağlı vətəndaşlara müraciət etdi*

***Son dövrlərdə bir çox vətəndaş saxta kirayə ev elanlarının qurbanı olur. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) saxta kirayə ev elanları ilə bağlı vətəndaşlara müraciətində qeyd edilib. Bildirilib ki, bu kimi hallarla qarşılaşmamaq üçün diqqətli olmaq lazımdır.***

"Elanı diqqətlə yoxlayın. Təklif çox ucuz görünərsə, ehtiyatlı olun. Qanuni sənədlər tələb edin. Əvvəlcədən ödəniş etməyin. Mənzili şəxsən görmədən razılaşma sənədi imzalamayın. Sizi aldatmaq istəyənlərə qarşı tədbirli olun! Əmin olmadığınız hallarda DİN-in 102 Zəng mərkəzinə, ərazi polis orqanlarına müraciət edin. Qanuni yaşayış üçün hər zaman təhlükəsiz yoldan gedin!", - müraciətdə vurğulanıb.

## Daha 5 nəfər dəm qazından zəhərlənib - bu dəfə Sumqayıtda...

Sumqayıt şəhərində beş nəfər dəm qazından zəhərlənib. Hadisə şəhərin Kimyaçılar yaşayış massivində qeydə alınıb. Sumqayıt şəhər sakinləri - 1969-cu il təvəllüdlü Xankişi Təvəkkül oğlu Ocaqov, onun oğlu, 1993-cü il təvəllüdlü Murad Xankişi oğlu Ocaqov, 1977-ci il təvəllüdlü Ramil Qiyas oğlu Şirinov, onun oğlu, 2012-ci il təvəllüdlü Xəyal Ramil oğlu Şirinov və 1989-cu il təvəllüdlü Elvin Zaman oğlu Mirzəyev dəm qazından zəhərləniblər. Onlar dərhal xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.



### "BAKI AĞIRLAŞDIRICILAR" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏHMDARLARININ NƏZƏRİNƏ

***"Bakı Ağırlaşdırıcılar" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağı 21 fevral 2025-ci il tarixində saat 11- 00-da keçiriləcək.***

İclasın gündəliyində aşağıdakı məsələlər durur:

1. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatlarının təsdiq edilməsi.
2. Səhmdar cəmiyyətin 2024-cü il üçün mənfəət və zərərinin bölüşdürülməsi haqqında.
3. Direktorlar (Müşahidə) Şurasının tərkibinin və sədrinin seçilməsi.
4. İdarə Heyətinin və onun sədrinin seçilməsi.
5. Təftiş komissiyasının və onun sədrinin seçilməsi.
6. Hesablama komissiyasının və onun sədrinin seçilməsi.
7. Digər məsələlər.

Yığıncağın keçiriləcəyi ünvan : Bakı şəhəri , Qaradağ rayonu , Salyan şossesi 22-ci km , 22A ( zavodun inzibati binasında)

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu 012 565 21 34**

**«Bakı Ağırlaşdırıcılar»ASC-nin İdarə heyəti**

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Martda 16 gün iş olmayacaq...

***Mart ayında 16 gün iş olmayacaq. Qeyri-iş günlərinə 8 Mart – Qadınlar Günü, Novruz bayramı, şənbə və bazar günləri daxildir. Belə ki, 8 Mart–Qadınlar Günü şənbə gününə təsadüf etdiyindən həftənin bazar ertəsi, yəni martın 10-da da (ardıcıl 3 gün) iş olmayacaq.***



Martın 20, 21, 22, 23 və 24-də Novruz bayramı ilə əlaqədar qeyri-iş günüdür. Martın 22-si şənbə və 23-ü bazar gününə təsadüf etdiyindən ayın 25-də və 26-da da (ardıcıl 7 gün) iş olmayacaq.

Martın ayda bayramlardan əlavə, şənbə və bazar günləri də daxil olmaqla, ümumilikdə 16 gün iş olmayacaq.

## Bu çayları içməyin Orqanizmə zəhər saçır



***Dünya miqyasında geniş yayılmış içkilər sırasında əsas yeri tutan çay hər zaman faydalı deyil.***

Milli.Az xəbər verir ki, xüsusilə paket çaylar orqnizm üçün zərərlidir. Barselona Avtonom Universitetində çayxorları məyus edəcək araşdırma aparılıb. Alimlər müəyyənləşdirib ki, paket çaylar yüksək miqdarda mikroplastik ehtiva edir. Müxtəlif çay markaları üzərində aparılan araşdırmalardan məlum olub ki, bu çaylar insan bədəninə yüksək miqdarda mikroplastik yayır.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (UNDP) görə bu plastiklər hormonal pozulma, çəki artımı, insulinə müqavimət, sperma keyfiyyətinin azalması və xərçəng kimi ciddi sağlamlıq problemlərinə səbəb ola bilər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700